www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 19 noyabr 2025-ci il Çərşənbə № 209 (8819) Qiyməti 60 qəpik

**Xəbər**

## Ən çox şikayət edilən dövlət qurumları açıqlandı

yazısı səh.3-də

**Gündəm**

### Səfirliyimizə atılan raketin Ramiz Mehdiyevlə nə əlaqəsi?



Kremlə yaxın media gərginliyi artırmaq mövqeyi tutub və bu məqsədlə PA-nın sabiq rəhbərinin adını hallandırır

yazısı səh.4-də

### "Məmur torpaqları" daha toxunulmaz olmayacaq

yazısı səh.3-də

### "Euronews"a Şuşaya görə təzyiqlər

yazısı səh.5-də

### Nazirliklərə nəzarət artırılır

yazısı səh.3-də

### Fransa o bəyanatı niyə vermişdi?

yazısı səh.5-də

### ABŞ səfirinin Bakıya 10 ay yubanan təyinatı

yazısı səh.6-da

### "Freedom House" yenidən anti-Azərbaycan mövqedə

yazısı səh.5-də

### PA rəhbəri məmurları Zəngilana topladı

yazısı səh.2-də

### İstanbulda ermənilərlə görüş

yazısı səh.10-da

### "Rus sektoru" mövzusu yenə gündəmdə

yazısı səh.11-də

### Bağlanan iş yerlərinin sayı artır - səbəb

yazısı səh.15-də

### Azərbaycan istehsal etdiyi avtomobilləri niyə sata bilmir?

yazısı səh.12-də

# KREMLİN İRƏVANDAKI "İŞIĞI SÖNDÜ"

Paşinyanın Üçkilsə qələbəsi 2026-cı il parlament seçkilərinin anonsu hesab olunur; amma hakim partiya "vint"ləri bərkitməklə daha rahat qələbə qazanmağı hədəfləyir; baş nazir aradan götürülə bilərmi?

yazısı səh.10-da




## Sülhməramlılarımızın Qəzzaya yolu açıldı - Bakının qərarı

BMT Təhlükəsizlik Şurasının qətnaməsindən sonra sülhyaratma missiyasının tərkibi yenidən gündəmə gəlib

yazısı səh.9-da



Məsi Əlinejad

### İki azərbaycanlı avtoritet müxalifətçini niyə öldürmək istəyib?

yazısı səh.13-də



### Vahid Ələkbərovun milyardları uğrunda mübarizə - biz niyə yoxuq...

yazısı səh.7-də



Alison Huker

### Rubionun müavini Bakıda - "907-ci düzəliş"in ləğvi niyə uzanır?

yazısı səh.8-də



## PA rəhbəri məmurları Zəngilana topladı

**Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Zəngilan şəhərində qərargahın 5 illik fəaliyyətinə həsr olunmuş iclası keçirilib.**

İclasda çıxış edən Samir Nuriyev dövlətimizin başçısının birbaşa rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərə "Böyük Qayıdış" proqramının gerçəkləşdirildiyini bildirib.

Onun sözlərinə görə, Qarabağın və Şərqi Zəngəzurun bərpası və yenidən qurulması istiqamətində həyata keçirilən genişmiqyaslı işlər postmünaqişə dövründə tətbiq edilən ən sistemli və sürətli yenidənqurma modellərindən biri kimi beynəlxalq təcrübə üçün mühüm nümunədir.

Sonra iclasın gündəliyinə uyğun olaraq, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası çərçivəsində işğaldan azad edilmiş ərazilərdə yaşayış məntəqələri üzrə həyata keçirilən işlər barədə məlumatlar təqdim edilib.

## Fransa Azərbaycandan neft alışını üç dəfədən çox artırıb



**Bu ilin yanvar-oktyabr aylarında Azərbaycan Fransaya 281 min 055,52 ton xam neft ixrac edib.**

"Report"un Dövlət Gömrük Komitəsinə istinadən verdiyi xəbərə görə, bu miqdarda məhsulun dəyəri 143 milyon 049,38 min ABŞ dolları təşkil edib.

İxrac olunmuş məhsulun miqdarı 2024-cü ilin ilk 10 ayı ilə müqayisədə 3,1 dəfə, dəyəri isə 2,5 dəfə çoxdur.

Fransaya ixrac edilən xam neftin Azərbaycanın ümumi neft ixracında payı 1,35% olub.

Qeyd edək ki, bu ilin yanvar-oktyabr aylarında gömrük bəyannamələrinə əsasən, Azərbaycan ümumi dəyəri 10 milyard 849 milyon 719,29 min ABŞ dolları olan 20 milyon 754 min 593,06 ton həcmində bitumlu süxurlardan alınmış xam neft və neft məhsulları ixrac edib.

Hesabat ayında Azərbaycan xarici ölkələrlə 40 milyard 862 milyon ABŞ dolları dəyərində ticarət əməliyyatı aparıb. Xarici ticarət dövriyyəsinin 21 milyard 637 milyon ABŞ dolları ixracın, 19 milyard 225 milyon ABŞ dolları isə idxalın payına düşüb.

## WhatsApp istifadəçilərinə xəbərdarlıq



**Son günlər WhatsApp vasitəsilə istifadəçilərin hesablarına icazəsiz giriş cəhdləri sürətlə artıb.**

Bu barədə Elektron Təhlükəsizlik Xidmətinin vətəndaşlara müraciətində qeyd olunub. Bildirilib ki, şübhəli keçidlərə daxil olmaq, tanımadığınız şəxslərdən gələn linklərə klikləmək və təsdiqləmə kodlarını paylaşmaq böyük risk yaradır: "Heç bir halda SMS və ya WhatsApp təsdiqləmə kodlarınızı başqaları ilə bölüşməyin!"

## Axtarışda olan şəxs Polşada saxlanıldı

**Beynəlxalq axtarışda olan Azərbaycan vətəndaşı Elmixan Allahyar oğlu Kərimov Polşa ərazisində saxlanılıb.**

DİN-in Mətbuat Xidmətindən bildirilib ki, Gəncə Şəhər Baş Polis İdarəsində ibtidai istintaq edilən dələduzluq cinayəti işi üzrə E.Kərimov təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərar qəbul edilməklə beynəlxalq axtarışa verilib.Azərbaycan Respublikasında İnterpolun Milli Mərkəzi Bürosu tərəfindən həmin şəxsin Azərbaycana gətirilməsi üçün tədbirlər görülür.

# Qəzalar 9 ayda 507 nəfərin həyatına son qoyub



**2025-ci ilin yanvar-sentyabr aylarında 905 və ya 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 12,2 faiz az yol-nəqliyyat hadisəsi baş verib, bu hadisələr nəticəsində zərərçəkən şəxslərin sayı 11,9 faiz azalaraq 1264 nəfər olub. Onlardan 507-si həlak olmuş, 757-si isə yaralanıb.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, yol-nəqliyyat hadisələrinin 85,0 faizi yaşayış məntəqələrində baş verib, bu hadisələr nəticəsində həlak olanların sayı ötən ilin müvafiq dövrünə nisbətən 7,3 faiz azalaraq 353 nəfər, yaralananların sayı isə 16,8 faiz azalaraq 708 nəfər olub.

Qeyd olunub ki, hadisələrin 44,5 faizi gündüz, 42,6 faizi gecə, 12,9 faizi isə toran vaxtı baş verib, 30,6 faizi həftənin şənbə və bazar günlərinə təsadüf edib.



## Qaxda 14 yaşlı məktəbli güllələndi

**Qaxda məktəbli güllələnib.**

Modern.az xəbər verir ki, hadisə Əmbərçay kəndində qeydə alınıb.

Kənd sakini olan 14 yaşlı Səfər Orucov (ad və soyad şərtidir) naməlum şəraitdə güllə yarası alaraq, xəstəxanaya yerləşdirilib.

Araşdırma aparılır.

Yaralının orta məktəbin 8-ci sinfində təhsil aldığı bildirilir.



## "Qarabağ" Şahruddini uzun müddətlik itirdi

**"Qarabağ"ın qapıçısı Şahruddin Məhəmmədəliyev 2-3 ay yaşıl meydanlardan uzaq qalacaq. Bu barədə Ağdam klubunun mətbuat xidmətinin rəhbəri Anar Hacıyev məlumat verib. Onun sözlərinə görə, təcrübəli qolkiper sol bud çanağından zədələnib. Qeyd edək ki, Şahrudin Məhəmmədəliyev Azərbaycan-Fransa matçında zədələnərək oyunu davam etdirə bilməmişdi.**

## Əmisi oğlu Əli Kərimli haqda nələr dedi?



*"Mən Kərimovlar ailəsinin ağsaqqalı kimi daim Əli Kərimlinin bügünkü və keçmiş fəaliyyətindən narazılığımı ifadə etmişəm.*

Onun 1993-cü ildən bu günə qədər olan fəaliyyətindən narazıyam. Dövlət katibi olanda da onun fəaliyyəti ilə bağlı ümidsiz olmuşam. Əli Kərimli mənimlə əmioğludur. Onun əməllərində qanunsuzluq görürəmsə, necə susa bilərəm?"

Bunu Əli Kərimlinin əmisi oğlu Nuhəli Kərimov "Səs" TV-də bildirib. O qeyd edib ki, Əli Kərimlinin dövlətə qarşı qərəzi var, çıxışlarında da xalqı dövlət əleyhinə qaldırmağa çalışır.

Nuhəli Kərimov Əli Kərimli və Ramiz Mehdiyevin yaxınlığı ilə bağlı məqamı da açıqlayıb: "İki qüvvə arasında bağlantı var. 2004-cü ildən Ramiz Mehdiyevin təzyiqlərinə məruz qalmışam. "Azərbaycan" nəşriyyatında oturururdum, baş redaktor kimi işləyirdim. Akif Muradverdiyev Ramiz Mehdiyevin sifarişi ilə mənə binaya girişi qadağan etdi. Hələ 2003-cü il dekabrın sonlarında mənə kəndimizdən sinal gəlmişdi ki, məni oradan çıxaracaqlar.

Akif Muradverdiyev kəndimizdəki cəbhəçilərlə bir məclisdə onlara bu barədə söz veribmiş. Yanvarın 1-dən mənim nəşriyyatla müqaviləm dayandırıldı. Davamlı müraciətlərdən 6 ay sonra fəaliyyətim bərpa olundu. Başda Əli Kərimli olmaqla, AXCP-nin Ramiz Mehdiyevlə yaxınlığı vardı, onlar bu vasitə ilə buna nail olmuşdular".

N.Kərimov buna səbəb kimi daim Əli Kərimlinin fəaliyyətinə yönəlik tənqidi çıxışlarını göstərib.





## Saytlara girişdə problem

**Noyabrın 18-də Azərbaycanda bir sıra xəbər portallarına daxil olmaqda çətinliklər qeydə alınıb. Məlumata görə, müxtəlif media resurslarına giriş ya mümkün olmayıb, ya da səhifələr çox gec yüklənib.**

Problemin genişmiqyaslı olduğu bildirilir. İstifadəçilər həm kompüterdən, həm də mobil cihazlardan daxil olarkən "Cloudflare" Error tipli bildirişlər alıb. Bu cür xətalar adətən saytların təhlükəsizlik və iş yükünü idarə edən beynəlxalq "Cloudflare" xidmətində yaranan texniki nasazlıqlarla bağlı olur.

"Cloudflare" artıq məsələni təsdiqləyib və rəsmi açıqlamasında bildirilib: "Cloudflare" bir neçə müştəriyə təsir edən texniki problemi araşdırır. Daha ətraflı məlumat əldə olunduqca paylaşılacaq".



## Əhməd Orucun evi qarət edildi

**İnsult keçirərək xəstəxanaya yerləşdirilən Azadlıq Partiyasının sabiq sədri Əhməd Orucun evi qarət edilib.**

Bu barədə Lent.az-a Əhməd Orucun oğlu Abdul Oruc məlumat verib.

Onun sözlərinə görə, hadisə atasını xəstəxanaya yerləşdirən gün baş verib.

"Evimiz "Şamaxinka"da yerləşir. Biz xəstəxanada olanda pəncərəni qıraraq evə giriblər. Evdən 6 min manatlıq qızıl olmaqla ümumi 10 min manat dəyərində oğurluq edilib".

**Abdul Oruc qeyd edib ki, hadisə ilə bağlı polisə məlumat verilib:** "Xəstəxanadan qayıdanda gördük ki, evimiz qarət edilib. Dərhal polisə məlumat verdik. Bir neçədi polisindən gəlib əl izlərini götürdülər. Bildiyimizə görə, hadisəni törədənin kimliyi artıq müəyyənləşib. Hazırda onun tutulması istiqamətində əməliyyat-axtarış tədbirləri davam edirilir".

Qeyd edək ki, Əhməd Oruc iki gün əvvəl ürəyindəki ağrılarla bağlı Elmi-Tədqiqat Kardiologiya İnstitutuna həkim qəbuluna gedib. İnstitutda olarkən o, insult keçirib.

Əhməd Oruc hazırda reanimasiyadadır.

YENİ MÜSAVAT
N 209 (8819) 19 noyabr 2025

# Nazirliklərə nəzarət artırılır

## **Yeni qaydalar təsdiqləndi:** nazirliklər daxilində korrupsiya risklərinin müəyyən edilməsi və onların idarə olunması artıq birbaşa rəhbərin öhdəliyidir



**Azərbaycanda mərkəzi icra hakimiyyəti orqanlarının (nazirliklərin, dövlət xidmətləri və agentliklər) fəaliyyət qaydaları yenilənib.**

Prezident İlham Əliyevin 17 noyabr 2025-ci il tarixli Fərmanı ilə təsdiqlənən yeni Nümunəvi Əsasnamə hökumətdə idarəetmə mexanizmini əhəmiyyətli dərəcədə dəyişdirir.

Yeni sənəd əvvəlki əsasnamə ilə müqayisədə həm struktur, həm maliyyə, həm də kadr siyasəti sahəsində rəhbərlərin səlahiyyətlərini xeyli genişləndirir və onlara əlavə öhdəliklər gətirir.

Sənədin ən diqqətçəkən tərəfi odur ki, nazirliklər artıq təkcə siyasəti hazırlayan qurum kimi deyil, bu siyasətin icrasına nəzarət edən və əlaqələndirmə aparan əsas icraçı mexanizm kimi müəyyənləşdirilir. Əvvəllər ümumi formada göstərilən "dövlət siyasəti və tənzimləmə" funksiyası indi "dövlət nəzarəti", "dövlət tənzimləməsi" və "əlaqələndirmə" kimi ayrıca fəaliyyət istiqamətləri halına salınıb.

Yeni əsasnamə rəhbərlərin məsuliyyət dairəsini də genişləndirir. Nazirliklər daxilində korrupsiya risklərinin müəyyən edilməsi və onların idarə olunması artıq birbaşa rəhbərin öhdəliyidir. Bunun üçün qurum daxilində xüsusi bölmə və ya məsul şəxs təyin olunmalıdır. Bundan başqa, dövlət-özəl tərəfdaşlığı, səfərbərlik hazırlığı, elmi tədqiqatların təşkili və beynəlxalq layihələrdə iştirak kimi sahələr də rəhbərin fəaliyyət dairəsinə daxil edilib.

Diqqət çəkən yeniliklərdən biri də rəqəmsal idarəetmə tələbləridir. Nazirliklər rəsmi internet informasiya ehtiyatlarını yaratmalı, açıqlanmalı olan ictimai məlumatları daim yeniləməli, kargüzarlıq və sənəd dövriyyəsini rəqəmsal şəkildə təşkil etməlidirlər. Həmçinin hər bir nazirliyin yanında İctimai Şura yaradılması məcburi xarakter alır.

Yeni sənəd rəhbərlərə daha böyük idarəetmə sərbəstliyi verir. Nazirlik daxilində struktur bölmələrin yaradılması və ləğvi, ştat cədvəlinin təsdiqi, büdcə vəsaitinin bölüşdürülməsi, tabeli qurumların fəaliyyətinə nəzarət və işçilərə maddi təşviqlərin verilməsi kimi məsələlər rəhbərin səlahiyyətinə çevrilir. Eyni zamanda işçilərə xüsusi və diplomatik rütbələrin, ixtisas dərəcələrinin verilməsi qaydası da daha aydın şəkildə tənzimlənib.

Nazirliyin Kollegiya institutunun səlahiyyətləri də artırılıb. Artıq kollegiya bir neçə dövlət orqanının fəaliyyətini tənzimləyən birgə normativ aktlar qəbul edə bilər. Kollegiya tərəfindən qəbul olunan qərarların dairəsi əvvəlki sənədlə müqayisədə daha genişdir.

Apelyasiya şuralarının fəaliyyəti də yenilənib. Sahibkarların müraciətlərindən başqa, dövlət qulluğuna qəbul müsabiqələrinin nəticələri ilə bağlı şikayətlər də bu şuralarda araşdırılacaq. Şuranın tərkibini isə birbaşa nazir təsdiq edir.

Beləliklə, yeni əsasnamə hökumətin idarəetmə sistemində həm nəzarət, həm də çeviklik imkanlarını artırır. Nazirliklərə verilən yeni səlahiyyətlər onları daha məsuliyyətli, daha şəffaf və daha funksional qurumlara çevirməyi hədəfləyir. Bu dəyişikliklər dövlət idarəçiliyində iqtisadi fəallığı gücləndirən məqsədlərə yönəldilən yeni mərhələnin başlandığını göstərir.

❑ "Yeni Müsavat"



# Ən çox şikayət edilən dövlət qurumları açıqlandı

## Reyestr xidməti və pensiya təminatı ilə məşğul olan qurumlar "liderdir"

**2025-ci ilin 31 oktyabr tarixinə Bakı İnzibati Məhkəməsində baxılan işlərin sayı artıq 18 min həddini keçib.**

Statistik rəqəmlər açıq şəkildə göstərir ki, dövlət qurumları ilə vətəndaşlar arasında mübahisələr artmaqdadır. Gün ərzində orta hesabla 60-70 işə baxılması isə həm məhkəmənin iş yükünü, həm də hakimlərin üzərinə düşən məsuliyyətin miqyasını göstərir.

Mövzu ilə bağlı Modern.az-a danışan **vəkil Cavad Cavadov** qeyd edib ki, 2015-ci ilin 1 yanvarından etibarən məhkəmə işləri ilə bağlı statistika Məhkəmə-Hüquq Şurasının fəaliyyətinə verilib: "Bu statistik rəqəmlər isə hələlik yalnız 2025-ci ilin birinci yarısı üçün açıqlanıb. Ona görə də dəqiq göstəricilər zaman keçdikcə məlum olacaq. Hazırda isə Bakı İnzibati Məhkəməsində baxılan işlər üzrə rəqəm təxminən 19 minə yaxınlaşır. Ümumi şəxsi müşahidələrimə əsasən deyə bilərəm ki, ən çox şikayət olunan qurumlar reyestr xidməti və pensiya təminatı ilə məşğul olan qurumlardır. Lakin bununla bağlı rəsmi statistik məlumatlara ehtiyac var. Yəqin ki, ilin sonunda və ya növbəti ildən etibarən daha dəqiq göstəricilər açıqlanacaq", - deyə o bildirib.

**Hüquqşünas həmçinin vurğulayıb ki, son illərdə işlərin operativ həlli üçün Ali Məhkəmə tərəfindən çox mütərəqqi praktika tətbiq olunub**: "Belə ki, birtipli işlərlə bağlı formalaşmış məhkəmə praktikası mövcud olduqda həmin kateqoriyadan olan kasasiya şikayətləri artıq mümkün hesab edilmir. Ali Məhkəmə bildirir ki, bu işlər üzrə mövqe formalaşıb və qərarlar sabitdir. Buna görə də belə işlər üzrə yenidən şikayət verilməsinə ehtiyac görülmür".

Vəkilin sözlərinə görə, ümumilikdə məhkəmələrə də tövsiyə edilir ki, bir iş üzrə artıq vahid məhkəmə mövqeyi varsa, inzibati orqanlar da öz qərarlarını həmin məhkəmə praktikası əsasında formalaşdırmalıdır: "Lakin buna baxmayaraq, biz görürük ki, bəzi dövlət qurumları məsuliyyəti üzərlərindən atmaq üçün vətəndaşları məhkəmələrə yönləndirirlər. Bu isə əsassız iş yükünə səbəb olur və vətəndaşların hüquqlarının pozulmasına gətirib çıxarır. Hesab edirəm ki, bununla bağlı ümumiləşdirilmiş tədbirlər görülməlidir.

Məhkəmədə baxılan işlərə gəlincə isə həmin işlərin böyük əksəriyyəti vətəndaşların (iddiaçıların) xeyrinə həll olunur. Burada iddiaçının yalnız fiziki şəxs olması vacib deyil, hüquqi şəxslər də inzibati orqanlara qarşı iddia qaldıra bilirlər. Lakin ümumi statistika göstərir ki, iddiaların çoxu təmin edilir".

**C.Cavadov onu da əlavə edib ki, artıq bir neçə ildir ki, işlərin hakimlər arasında bölüşdürülməsi elektron qaydada həyata keçirilir:** "Burada insan faktoru rol oynamır, istisna edilir və iş yükünün hakimlər arasında bərabər şəkildə paylanması, eyni yükdə icraatı təmin edilir. Bununla belə, onu qeyd etməliyəm ki, ümumilikdə iş yükü həddindən artıq çoxdur. İnsan faktoru nəzərə alınarsa, qərarların hazırlanması, yazılması və göndərilməsi çox ağır prosesdir. Hətta deyərdim ki, bu iddiaların əksər hissəsi dövlət qurumları normal qaydada fəaliyyət göstərsəydi, ümumiyyətlə məhkəmələrə düşməzdi".

# "Məmur torpaqları" daha toxunulmaz olmayacaq

## Hökumət əkilməyən torpaqların müəyyən olunması üzrə geniş kampaniya həyata keçirməyə hazırlaşır



**Geniş torpaq sahələrinin nüfuzlu şəxslər, məmurlar tərəfindən hasarlanıb illərlə boş saxlanması ictimaiyyəti narahat edən əsas məsələlərdən biridir.**

Mülkiyyət sahibi kimi görünən şəxslər əraziləri faktiki olaraq öz "xüsusi zona"larına çevirsələr də, həmin sahələr əkin dövriyyəsinə cəlb olunmadan, tamamilə istifadəsiz vəziyyətdə qalır. Bu problem həm də ölkənin ərzaq təhlükəsizliyinə, kənd təsərrüfatının inkişafına və torpaq idarəçiliyinə mənfi təsir göstərir.

**Prezident İlham Əliyev bir neçə gün əvvəl icra başçılarını qəbul edərkən məsələni xüsusi olaraq vurğulayıb:** "Bir çox hallarda torpaqlardan səmərəsiz istifadə edilməsi halları olub, torpaqlar zəbt edilib, torpaqların kateqoriyaları dəyişdirilib. Əkin-biçin üçün yararlı olan torpaqlarda bəzi məmurlar özləri üçün imarətlər inşa ediblər və əlbəttə ki, bütün bunlar qanunsuz hərəkətlərdir".

Prezidentin bu mesajı ölkədə torpaq idarəçiliyi ilə bağlı yeni dövrün başlandığına işarə edir. Məmurların və digər imkanlı şəxslərin əkilməyən torpaq sahələrinin geri alınması, icmanın və dövlətin ehtiyaclarına yönəldilməsi artıq real gündəmdədir.

Ekspertlər hesab edirlər ki, kənd təsərrüfatı potensialının tam istifadəsi üçün bu addım zəruridir. Qanunsuz hasarlanmış torpaqların dövriyyəyə qaytarılması həm məhsuldarlığı artıracaq, həm də kənd yerlərində iqtisadi fəallığı gücləndirəcək. Bununla yanaşı, hökumət yeni monitorinq mexanizmləri və satılmayan, əkilməyən torpaqların aşkar olunması üzrə geniş kampaniya həyata keçirməyə hazırlaşır.

Beləliklə, uzun illər toxunulmaz hesab olunan "məmur torpaqları" artıq hüquqi qiymətini alacaq. İstifadəsiz qalan sahələrin ya əkilməsi, ya da dövlət ehtiyacına yönəldilməsi vacib şərtə çevrilir.

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev Modern.az-a bildirib ki, bu gün ölkə ərazisində əkinə yararlı, becərmək üçün əlverişli olan yüz hektarlarla torpaq sahələri var ki, onlar uzun illərdir istifadəsizdir: "Həmin torpaqlar ayrı-ayrı şəxslər, vəzifəli adamlar tərəfindən götürülüb, hasarlanıb və illər ərzində istifadəsiz qalıb, əkilib-becərilməyib. Sözsüz, belə torpaqlar öz münbitliyini itirməkdədir".

Komitə sədri bildirib ki, əgər torpaqlar uzun müddət istifadəsiz qalırsa, o, geri alınmalıdır. Yaxud həmin torpaqlar üzrə müəyyən vergi və ödənişlər artırılmalıdır. Çünki bu torpaqların istifadəsiz qalması ərzaq təhlükəsizliyimizə ciddi maneələr yaradır, iqtisadi nəticələrimizi azaldır və yerli əhalinin sosial durumuna mənfi təsir göstərir.

**T.Rzayev qeyd edib ki, bu halların aradan qaldırılması üçün torpaqların dövriyyəyə qaytarılması istiqamətində ciddi tədbirlərin görülməsi vacibdir:** "Qaydalar var, dəfələrlə bu barədə insanlara xəbərdarlıq edilib, onların qarşısında müxtəlif məsələlər qaldırılıb. Ancaq çox təəssüflər olsun ki, yenə də bu tapşırıq və vəzifələr özünün tam yüksək nəticəsini vermir. Ona görə də konkret, ciddi tədbirlərə əl atılmalıdır. Bu gün qarşıda duran ən vacib məsələ hər qarış torpaqdan səmərəli istifadə etmək, torpaqların münbitliyini artırmaq, yüksək məhsuldarlıq əldə etməkdir".

❑ "Yeni Müsavat"

YENİ MÜSAVAT
N 209 (8819) 19 noyabr 2025

# Səfirliyimizə atılan raketin Ramiz Mehdiyevlə nə əlaqəsi?

## Kremlə yaxın media gərginliyi artırmaq mövqeyi tutub və bu məqsədlə PA-nın sabiq rəhbərinin adını hallandırır

**Rusiya qoşunlarının Kiyevə növbəti zərbələri nəticəsində Azərbaycan səfirliyinin binasına da zərər dəyməsi Bakı və Moskva arasında gərginlik yaradıb. Hadisədən sonra Azərbaycan Rusiyanın səfiri Mixail Yevdokimova nota verib. Kremlə yaxın Rusiya mediası isə bu hadisəni Azərbaycana yeni hücum fürsəti bilib.**

Məsələn, “Moskovskiy komsomelts” Azərbaycanın səfirlik səviyyəsində Rusiyaya etirazına nədənsə barəsində ev dustaqlığı qərarı verilmiş Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyevi yada salmaqla “cavab verib”.

Məqalədə bildirilir ki, iki ölkə lideri arasında Düşənbədəki danışıqlardan sonra Bakı Rusiyaya qarşı mövqe alıb. “Düşənbə görüşündən az sonra Azərbaycanda siyasi sensasiya yaranıb. Əsrin dörddə birindən artıq Prezident Administrasiyasının rəhbəri vəzifəsində çalışmış Ramiz Mehdiyev dövlət çevrilişi təşkil etməyə cəhddə ittiham olunub. 87 yaşlı siyasi ağsaqqalın Kremlin maraqları naminə Bakıda hakimiyyəti ələ keçirməyi planlaşdırdığı iddia edilir”. Nəşr Azərbaycanda Ramiz Mehdiyev xəyanətinin Rusiya tərəfindən ifşa edildiyi haqda rəyləri də yada salıb.

Bundan əvvəl də “Kommersant” qəzetində erməni jurnalist Lusine Balasyanın imzası ilə dərc edilən məqalədə Mehdiyev “Bakının boz kardinalı” adlandırılırdı. Qəzet onu uzun illər Azərbaycan siyasətində mühüm rol oynamış, dövlət ideologiyasının formalaşmasında iştirak etmiş “nüfuzlu siyasi fiqur” kimi təqdim edib. “Kommersant” yazırdı ki, Mehdiyevə qarşı irəli sürülən əsas ittihamlardan biri “dövlətə xəyanət” maddəsidir və bu, “Rusiya xeyrinə fəaliyyət” kontekstində izah olunur.

Rusiya mediasının bir hissəsi Mehdiyevlə bağlı hadisəni “Bakı ilə Moskva arasında münasibətlərdəki gərginliyin təzahürü” kimi qiymətləndirirdi. Bu məqalələrdə açıq-aşkar Mehdiyev ittiham olunan şəxs yox, “sabiq nüfuzlu dövlət xadimi” kimi göstərilirdi. Kiyevdəki səfirliklə bağlı hadisə gərginlik yaradan kimi Ramiz Mehdiyevin yenidən yada düşməsi diqqət çəkir.

**ƏHD Partiyasının baş katibi, politoloq Niyaməddin Orduxanlı “Yeni Müsavat”da məsələyə bu cür şərh verdi:** “Rusiyanın daxilində müəyyən qüvvələr var ki, hər zaman istəyir və çalışır ki, Moskva-Bakı münasibətləri gərgin olsun. Prezident Administrasiyasının sabiq rəhbəri Ramiz Mehdiyevlə bağlı yazdıqlarının heç bir əsası ola bilməz. İstintaqın obyektiv araşdırmasından sonra dəqiq biləcəyik ki, bu məsələdə kimlərin iştirakı və ya hansı ölkənin rolu olub. Mətbuatda gedən mülahizələr, fikirlər, ittihamlar tam həqiqəti əks etdirə bilməz. Özü də nəzərə alsaq ki, ən ağır ittihamlardan, vətənə xəyanət, dövlət çevrilişi və s. - dən söhbət gedir. Bunu, dediyim kimi, ancaq istintaq orqanı müəyyənləşdirməlidir. İstintaqın yekununu gözləyək”.

**AMİP liderinin köməkçisi, politoloq Əli Orucov Rusiyanın bu addımlarının bumeranq effekti verəcəyini düşünür:** “Rusiyanın Kiyevə noyabrın 14-də endirdiyi hava zərbələri zamanı Azərbaycanın bu şəhərdə yerləşən Ukraynadakı səfirliyinin də hədəf alınması növbəti təxribatıdır. Bundan öncə də səfirliyi hücuma məruz qalmış, dağıntılar törədilib. Moskva bir müddət əvvəl SOCAR-ın Odessa vilayətində olan yanacaq bazası və Azərbaycan qazını Ukraynaya nəql edən stansiya hücumlarına məruz qaldı. Rusiyanın bu dəfəki səfirliyi dağıtması həm də beynəlxalq hüquq normalarına saymazlığının bir daha dünyaya nümayişi oldu. "Diplomatik əlaqələr haqqında Vyana Konvensiyası"na görə, diplomatik nümayəndəliklər, səfirliklər toxunulmazdır və onlar hər hansı bir təsirə məruz qala bilməzlər. Odur ki, BMT baş katibi və Belçikanın xarici işlər naziri də Moskvanın bu addımına etirazını bildirdi. Rəsmi Bakı haqlı olaraq Rusiyaya etiraz notasını verməklə, səfirliyə raket hücumunu qəbuledilməz adlandırdı. Lakin Moskva törətdiyi beynəlxalq cinayətə görə üzr istəmək əvəzinə öz ənənəsinə sadiq qalaraq Azərbaycana qarşı çirkin təbliğat kampaniyasına start verdi, ağlasığmaz iddialar səsləndirdi, məsuliyyətdən qaçmağa çalışdı. Rusiyanın



Kremlə bağlı media qurumları və sifarişlər icra edən politoloqları vahid mərkəzdən düşmənçilik mövqelərini, nifrət və qərəzlərini açıq şəkildə ortaya qoydular. Bu dəfə aparılan çirkin kampaniya zamanı Prezident Administrasiyasının sabiq rəhbəri, ağır cinayətlərdə ittiham olunan Ramiz Mehdiyevin adının hallandırılması, onun "nüfuzlu siyasi fiqur" kimi təqdim edilməsi məkrli niyyətlərdən xəbər verir. Görünür, bu hələ başlanğıcdır. Onun yenidən Rusiya tərəfindən gündəmə gətirilməsi təsadüfi deyil. Növbəti mərhələdə Ramiz Mehdiyevdən Kreml öz məqsədləri üçün istifadə edə bilər. “Boz kardinal”ın Rusiyanın tapşırıqlarını icra etməsi, nökəri olması hər kəsə məlumdur. Rusiya Azərbaycanla yenidən gərginlik fazasına keçməyi üstün tutursa, bu, Moskva üçün böyük səhv və itki ola bilər. Kremlin məqsədləri aydındır. Təzyiqlə, güc, hədə və şantaj dilində danışmaqla Azərbaycanı haqlı və ədalətli mövqeyindən çəkindirməkdir. Ukrayna ilə əlaqələrinə mane olmaqdır, həmçinin Bakının Moskvanın ənənəvi nüfuz zonaları hesab etdiyi Cənubi Qafqazda və Mərkəzi Asiyada təsirini artırması və möhkəmləndirməsidir. Kremldəkilər bir həqiqəti anlamaq istəmirlər ki, Azərbaycanla dostluq münasibətlərindən daha çox faydalana bilərlər. Eyni zamanda Azərbaycan güclü dövlət olduğundan hansısa “nüfuzlu siyasi fiqur”dan istifadə etməklə nəyəsə nail ola bilməzlər. Həmin “fiqurlar” və onun çevrəsi zamanında ifşa olunub tam zərərsizləşdirilməkdədir. Rusiyanın Azərbaycandakı “5-ci kolon”u son dövrlər ciddi surətdə zəiflədilib. Kremlin zamanında daxili faktorlardan bəhrələnmək planları demək olar ki, iflasa uğradılıb. Azərbaycanın Ukrayna ilə enerji əməkdaşlığını, diplomatik nümayəndəliyini, mədəniyyət bağlarını hədəf seçməklə Kreml istəyinə çata bilməyəcək. Bu addımlar bumeranq effekti verərək Rusiyanın əleyhinə işləyəcək".

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**

## Mehdiyevin baş tutmayan daha bir planı

**1993-1999-cu illərdə mərhum dövlət başçısı Heydər Əliyevin köməkçisi və Prezident katibliyinin rəhbəri işləmiş Eldar Namazov dövlət çevrilişinə cəhddə ittiham olunan akademik Ramiz Mehdiyev barədə danışıb.**

O, “Yeni Azərbaycan” TV-yə müsahibəsində bu barədə bildirib: “Ramiz Mehdiyevin bir neçə əməlini izləyəndə gördüm ki, bizim dövlətçiliyimizə qarşı böyük təhlükə var. İlk olaraq deyim ki, o, həmişə hakimiyyət uğrunda mübarizə aparıb. Bunu gizlətmək lazım deyil. 2003-cü ildə İlham Əliyev seçkilərə qatılanda Ramiz Mehdiyev böyük təbliğata başlamışdı. Dedizdirirdi ki, İlham Əliyevin təcrübəsi yoxdur, Heydər Əliyev özündən sonra Ramiz Mehdiyevi öz yerində görürdü. Onun adamları belə təbliğatlar aparırdılar. Hətta Prezident Administrasiyasında təbliğat apardıqlarına görə bəzi adamlar cəzalandırıldılar.

Prezidentin tərcüməçisi var idi, o, sonra ölkəni tərk etdi. Bir neçə icra başçısı da bu siyahıda idi. Mən özüm bunu eşitmişdim. Mənim də yanıma gəlib deyirdilər ki, Heydər Əliyev özündən sonra yalnız Ramiz Mehdiyevi hakimiyyətdə görə bilər, İlham Əliyev çox cavandır, sən gərək buna mane olmayasan. Mən onlara dedim ki, siz hansı ağılla belə şeylər danışırsınız?! Ramiz Mehdiyev heç vaxt Azərbaycan prezidenti olmayacaq, siz də onun fitnəsinə getməyin, axırınız yaxşı olmayacaq. 2013-cü ildə də o, təbliğat aparırdı".

E.Namazov deyib ki, Mehdiyev Mehriban Əliyeva birinci vitse-prezident təyin ediləndə də öz əlaltıları vasitəsilə partiyaları buna qarşı qaldırmaq istəyirdi. Deyirdi ki, guya camaat Mehriban xanıma etiraz edir. Halbuki bu işlərin arxasında Ramiz Mehdiyev dururdu. Onun hakimiyyət iddiası çox güclü idi və birbaşa Moskva ilə bağlı adam idi. Bunu heç gizlətmirdi də. 1998-ci ildə Heydər Əliyevin səhhətində problemlər yaranan günün səhəri Ramiz Mehdiyev Rusiyanın Təhlükəsizlik Şurasının katibinə zəng edib dedi ki, Heydər Əliyevin vəziyyəti ağırdır, mən nə etməliyəm? Rusiyaya bu qədər bağlı adam idi".

R.Mehdiyev 1995-2019-cu illərdə Prezident Administrasiyasının rəhbəri olub. 2019-2022-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti vəzifəsini icra edib.

YENİ MÜSAVAT
N 209 (8819) 19 noyabr 2025




## “Euronews”a Azərbaycana görə təzyiqlər

**Kanalın rəhbəri:** ""Şuşa, Azərbaycan" yazılanda saysız-hesabsız etiraz e-mailləri gəlirdi..."

**Bakıda Avropanın ən nüfuzlu media platformalarından olan “Euronews” telekanalının yerli ofisi fəaliyyətə başlayıb. Açılış mərasimində qurumun Direktorlar Şurasının sədri Pedro Varqas David də iştirak edib.**

Pedro Varqas David xeyli maraqlı məqamlara toxunub. Onun sözlərinə görə, “Euronews”un Azərbaycanla bağlı obyektiv mövqeyi bəzi dairələrin narazılığına səbəb olub: “Bizim Azərbaycana qarşı balanslı mövqeyimiz qəbul edilmirdi. Baş ofisimizin qapısında etirazlar keçirilirdi, jurnalistlərimizə e-mail hücumları edilirdi. Xəbərlərdə "Şuşa, Azərbaycan" yazılanda saysız-hesabsız e-maillər gəlirdi... Biz isə beynəlxalq hüququn bu ərazini Azərbaycan kimi tanıdığını deyirdik".(mənbə: Modern.az)

“Euronews” rəhbəri bildirib ki, hətta ötən ilin dekabrında Azərbaycan təyyarəsinin vurulması ilə bağlı “Reuters”in Rusiyaya sərf edən versiyanı təbliğ etməsi də onların obyektiv mövqeyinə təsir etməyib: “Biz bunu heç vaxt etməmişik”.

Direktorlar Şurasının sədri iyunda baş vermiş 12 günlük İsrail-İran gərginliyi zamanı Azərbaycanın qlobal aviasiya şəbəkəsində oynadığı həyati rolu da xüsusi vurğulayıb.

Pedro Varqas David çıxışında ölkəmizin üstünlüklərini dünyəvi və müasir ölkə, yüksək inkişaf templəri, mühüm sənaye və strateji resurslar, Avropanın enerji və təchizat təhlükəsizliyində aparıcı rol kimi xarakterizə edib.

Tədbirdə həmçinin Mərkəzi Asiya və Cənubi Qafqaz liderlərindən alınan müsahibələri əhatə edən “Eurasia Talks” verilişinin təqdimatı keçirilib. Bakıda açılan ofis Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması üçün böyük platformadır. Bu ofis regionun informasiya mərkəzi rolunu gücləndirəcək. Qlobal auditoriya ilə birbaşa kommunikasiya imkanı yaradacaq . Ən əsası isə Azərbaycanın media diplomatiyasının strateji mərhələsi, dünyaya açılan böyük informasiya pəncərəsi olacaq.

# “Freedom House” yenidən anti-Azərbaycan mövqedə

## “İnsan hüquqları” adı altında separatizmi müdafiə edən hesabata Bakıdan reaksiya

**Azərbaycana qarşı həmişə qərəzli mövqe sərgiləyən “Freedom House” növbəti hesabatında da ölkəmizi hədəf alıb. Təşkilatın rəsmi saytı xəbər verir ki, yeni hesabatda iddia edilir ki, “Azərbaycan hökuməti müntəzəm olaraq internet bağlantılarını məhdudlaşdırır və hökuməti tənqid edən media orqanları da daxil olmaqla, veb saytları bloklayır”.**

Hətta Rusiyanın bəzi anti-Azərbaycan mövqeli xəbər agentliyinin və saytlarının bloklanması da “Freedom House”un xoşuna getməyib. Ən maraqlısı xaricdəki "söyüş müxalifəti"nin Azərbaycan Baş Prokurorluğuna çağırılmasına reaksiyadır. “Freedom House” bütün prinsiplərinə arxa çevirərək dövlət əleyhinə çağırışlar edənləri “hökuməti tənqid edən şəxslər” adlandırır, bunu “təzyiq kimi qiymətləndirməkdən” belə utanmır.

“Freedom House” “1994-cü ildən de-fakto müstəqillik əldə etmiş etnik erməni anklavı” adlandırdığı işğala haqq qazandırıb, erməni əhalinin könüllü köçüb getməsində yenidən Bakını günahlandırmağa çalışıb.

Hesabatda Türkiyə də hədəfə alınıb. Bildirilir ki, ölkə “rəsmilərinin tələbi ilə çoxsaylı sosial media hesabı bloklanıb və ya fəaliyyəti dayandırılıb”. “Bununla bağlı həbsdə olan prezidentliyə namizəd və yüz minlərlə izləyicisi olan İstanbul bələdiyyə başqanı Əkrəm İmamoğlunun ofisinin hesabına giriş bağlanıb”.

“Freedom House” iddia edib ki, Ermənistanda isə “məhdud veb-sayt bloklanıb”. Ermənistanla bağlı bölümdə də Azərbaycan hədəf alınıb. “Ermənistanın son illər Azərbaycanın hərbi təzyiqindən ciddi şəkildə təsirləndiyi” qeyd edilib.




“Freedom House” öz imicini korlamış, heç bir beynəlxalq standartlara, qayda-qanunlara məhəl qoymayan bir quruma çevrilib. Son hesabat da onu göstərir ki, təşkilat Azərbaycana qarşı qərəzli yanaşmanı davam etdirir. “Freedom House”un qeyri-obyektiv və saxta rəylərə güvənərək qərəzli hesabatlar hazırlaması bu təşkilatın çirkli siyasi oyunlarda iştirakını bir daha təsdiqləyir.

Bu barədə “Yeni Müsavat”a danışan **Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə** bildirdi ki, “Freedom House” birinci dəfə deyil Azərbaycana qarşı qərəzli mövqe ortaya qoyur. Bu təşkilat Azərbaycana qarşı münasibətlərində bəzi dövlətlərin və ermənipərəst qrupların təsiri altında hesabatlar hazırlayır: “Sadəcə, qeyd etmək istəyirəm ki, indiki hesabat qeyri-obyektivliyinə, böhtan dolu fikirlərinə görə özündən əvvəlkiləri kölgədə qoyub. Görünən budur ki, ”Freedom House" artıq neçənci dəfədir bütün qırmızı xətləri keçir və beynəlxalq ictimaiyyət aldadılır. Onların hesabatı insan hüquqlarının, medianın, söz azadlığının qorunmasına yox, sırf Azərbaycana qarşı şər-böhtana həsr edilib. Bu böhtançı təşkilatda erməni mənşəli şəxslərin işlədiyi çoxdan hər kəsə məlumdur. Hesabatlarının qərəzli hazırlanmasında bu amil də rol oynayır. Artıq xeyli vaxtdır Qarabağ məsələsi həll olunub, ATƏT-in Minsk Qrupu ləğv edilib, Ermənistanın özü belə ən yüksək səviyyədə bəyan edib ki, bu məsələ artıq gündəmdən çıxıb və hətta Nikol Paşinyan Qarabağdan könüllü köçmüş ermənilərin bundan sonra geri qayıtmasının mümkün olmadığını bəyan edib. “Freedom House” isə bütün bunlara rəğmən hələ də Qarabağ ermənilərinin guya hüquqlarını qoruyurmuş kimi təxribatçı fikirləri qondarma hesabatına daxil edib. Açıq-aşkar görünür ki, bu təşkilat Qarabağ probleminin həll olunmasını, Azərbaycanla Ermənistan arasında sülhü istəmir, əksinə, yenidən qarşıdurma meydana gəlməsini, yenidən separatizmin baş qaldırmasını istəyir".

**Ç.Qənizadə vurğuladı ki, dünya erməniliyi və erməni diasporundan qidalananlar Azərbaycanı hədəfə alıblar:** “Çünki onlar Prezident İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycanın qətiyyətinin qarşısında Ermənistanın, dünya erməniliyinin on illərlə apardığı siyasətin çökdüyünü və regionda sülhün yaranmasını həzm edə bilmirlər. Ona görə də ən müxtəlif əsassız bəhanələrlə Azərbaycanı qaralamağa çalışırlar. Prezident İlham Əliyevin anti-Azərbaycan qüvvələrin qarşısında ölkəmizin maraqlarını məharətlə qoruması, milli maraqlarımızdan bir addım da olsun geri addım atmaması revanşist erməniləri, onlara bağlı qüvvələri qəzəbləndirir. "Freedom House"un hesabatındakı bəzi məqamlar da bunu bir daha təsdiq edir. Lakin Azərbaycan dövləti və onun lideri haqq yolundadır, beynəlxalq hüquqa əsaslandığı üçün hansısa qondarma hesabatlar və böhtanların heç bir əhəmiyyəti, təsiri olmayacağı bəllidir. “Freedom House” kimi təşkilatlara Azərbaycan ictimaiyyətində və dünya ictimaiyyətində artıq etimad, inam yoxdur. Çünki artıq onların qərəzli olduğunu və korrupsiyaya, rüşvətə bulaşdıqlarını ictimaiyyət görür. Uzun illər Azərbaycan ərazisi olan Qarabağda insan hüquqlarını ayaqlar altına atmış, dinc insanların kütləvi və amansız qətlini həyata keçirmiş separatçıları müdafiə edən bir təşkilat əslində adının və olan-qalan nüfuzunun da üstündən çoxdan xətt çəkib. Ona görə də onun hazırlayıb yaydığı hesabat bizim üçün mənasız kağız parçasından başqa bir şey deyil".

❑ Etìbar SEYÌDAĞA, “Yenì Müsavat”

# Fransa o bəyanatı niyə vermişdi?

## Politoloq: “Azərbaycanın xeyrinə yox, Rusiyanın əleyhinə olmaq üçün...”

**Fransanın Kiyevə kütləvi zərbələr nəticəsində Azərbaycan səfirliyinə də zərər dəyməsinə münasibət bildirməsi diqqət çəkib.**

Sözügedən məsələ ilə bağlı fikirlərini Bakı-xeber.com-a bölüşən **politoloq Elşən Manafov** Fransanın belə mövqe sərgiləməsinə bir neçə prizmadan yanaşıb: “Avropa İttifaqının (Aİ) hərbi əməliyyatların dayandırılması və Ukrayna-Rusiya cəbhəsində atəşkəsin elan edilməsi ilə bağlı təklifləri məlum müharibənin doğurduğu səbəblərin aradan qaldırılmasına və ya onun ədalətli həllinə yönəlməyib. Aİ-dəki ultraqlobalist dairələrin bütün səylərinə, Ukraynaya olan hərbi və maliyyə dəstəyinə baxmayaraq, cəbhədə rus qoşunlarının hücum əməliyyatlarının qarşısını almaq mümkün olmur. Xüsusilə Pokrovsk ətrafında vəziyyət Kiyev iqtidarını və onun Qərbdəki havadarlarını narahat edir. Onun logistik, habelə sənaye əhəmiyyəti kəsb etdiyi birmənalıdır. Rusiya sülh müqaviləsinin imzalanması uçün münaqişəni doğuran səbəblərin aradan qaldırılmasını, Ukraynanın NATO-ya üzvlüyü ilə bağlı danışıqların dayandırılmasını, NATO-nun Şərqə doğru irəliləməsi, habelə Rusiyaya tətbiq edilən sanksiyalardan imtina kursunun elan edilməsini, nəhayət, müharibə nəticəsində Rusiyanın nəzarətinə keçmiş ərazilərin de-yure ona məxsus olmasının təsdiqini tələb edir. Ukraynanın atəşkəslə bağlı mövqeyi, təbii ki, qüvvələrin yenidən səfərbər edilməsinə, Ukrayna və Aİ üçün fərqli reallıqların formalaşmasına, müharibədən usanmış Ukrayna cəmiyyətinin yenidən müharibə notlarına köklənməsinə hesablanıb. Həmçinin beynəlxalq aləmdə Rusiyanın təcrid edilməsi üçün yeni imkanların götür-qoy edilməsinə hesablanıb”. **Politoloq xatırladıb ki, ABŞ-nin hazırkı iqtidarı Rusiya ilə danışıqları Aİ-nin istədiyi kimi təhdid ampluasında aparmaqdan imtina edir:** “Ukraynanın silahlandırılması və təchizatı ilə bağlı məsələləri Aİ-nin üzərinə yönəltməklə müharibənin aparılmasının maliyyə yükünü ona yükləmək istəyir. Fransanın Azərbaycanın Ukraynadakı səfirliyinin hücuma məruz qalması ilə bağlı məlum mövqeyi rəsmi Parisdə Azərbaycana olan qayğı və diqqətdən irəli gəlmir. Sadəcə, Bakının Moskva ilə münasibətlərində maraqlarımıza cavab verməyən gərginlik logistika, dəhlizlər və yükdaşımalar ətrafında Rusiyanı narahat edə biləcək addımların atılmasına görədir. Yəni Qərbin enerji təhlükəsizliyi ilə bağlı olaylarda rəsmi Bakının daha fəal siyasət sərgiləməsinə, regionun təhlükəsizlik problemləri ətrafında Rusiya və İranın maraqlarının lehinə olmayan addımların atılmasına hesablanıb”.



❑ “Yenì Müsavat”



# “ABŞ rəsmiləri Azərbaycan sözünü deyə bilmirdilər”

## Azərbaycan-ABŞ Beyin Mərkəzlərinin Birinci Forumunda maraqlı müzakirələr

**Noyabrın 18-də Bakıda Azərbaycan-ABŞ Beyin Mərkəzlərinin Birinci Forumu başlayıb. “Ortaq Baxışlar: Strateji Tərəfdaşlıq naminə Azərbaycan-ABŞ dialoqu” mövzusuna həsr edilən forumda yerli beyin mərkəzləri ilə yanaşı, ABŞ-nin “Atlantic Council”, “New Lines Institute”, Hudzon İnstitutu, Mərkəzi Asiya-Qafqaz İnstitutu kimi beyin mərkəzləri və “The National Interest” jurnalının nümayəndələri iştirak ediblər.**

Prezident Donald Trampın Cənubi Qafqaz da daxil olmaqla, qlobal “qaynar nöqtələr”də sülhün möhkəmləndirilməsində maraqlıdır. ABŞ prezidentinin şərəfinə adlandırılmış dəhliz onun regionda sülh prosesinin uğurla irəliləməsində şəxsi marağını vurğulayır. ABŞ-nin Azərbaycan və Ermənistanla münasibətlərini yaxşılaşdırması regional əlaqələrə xidmət edir. Hazırda Tramp administrasiyası Cənubi Qafqaz və Mərkəzi Asiyaya ciddi şəkildə diqqət yönəldib. Vaşinqton Azərbaycanla da, Ermənistanla da münasibətlərini yaxşılaşdırmaqdadır. Bu yaxınlaşma regional əlaqələrə, iqtisadi və təhlükəsizlik əməkdaşlığına xidmət edir". Atlantik Şurasının Avrasiya Mərkəzinin baş direktoru Con E.Herbst çıxışında belə deyib.

Baş direktor həmçinin Türkiyə ilə Ermənistan arasında münasibətlərin normallaşmasının da region üçün çox vacib olduğunu bildirib.

"New Lines" İnstitutunun Avrasiya təhlükəsizliyi və rifahı üzrə baş direktoru Kamran Bohari deyib ki, “Tramp marşrutu” ABŞ-yə Cənubi Qafqazı Mərkəzi Asiya ilə əlaqə platforması kimi istifadə etməyə imkan verir ki, bu da Azərbaycanın strateji rolunu gücləndirir.

**ADA Universitetinin rektoru Hafiz Paşayev çıxışında ABŞ-də səfir işlədiyi dövrü xatırlayıb:** “ABŞ-dəki diplomatik mandatım dövründə bu ölkədə beyin mərkəzlərinin nə qədər fəal və peşəkar işlədiyi məni təəccübləndirib. Mən kifayət qədər çətin dövrdə ABŞ-də Azərbaycanın səfiri olmuşam və Vaşinqtonda ölkəmizin ilk nümayəndəsi idim. Mənim üçün bir çox şey yeni idi və bu prosesdə beyin mərkəzləri böyük rol oynadı”.

**H.Paşayev qeyd edib ki, o zaman Azərbaycan həqiqətlərini ABŞ-də tanıtmaq çox çətin idi:** “Ermənilər Azərbaycan tarixini təhrif edirdilər. Mən səfirlərimizə xitabən xahiş edirdim ki, beyin mərkəzlərində müzakirələri izləsinlər. Mənə sual verirlər ki, yenidən səfir olmaq istərsinizmi? Mən isə cavab verirəm ki, indi səfir olmaq qat-qat asandır. Hazırda diplomatlar Azərbaycana xüsusi diqqət yetirirlər. O zaman isə ABŞ rəsmiləri Azərbaycan sözünü tələffüz edə bilmirdilər”.

**Cənubi Qafqaz Araşdırmalar Mərkəzinin sədri Fərhad Məmmədov çıxışında deyib ki, ABŞ-də Bayden özünün prezidentlik dövründə işləri daha çox Blinkenə həvalə etmişdi ki, bu da özünü doğrultmurdu:** “Təəssüflər olsun ki, bu proses münasibətlərin daha da zərər görməsinə gətirib çıxarırdı. Blinkenin əsas səhvlərindən biri də Laçın marşrutu ilə bağlı mövqeyi idi ki, bu da Azərbaycanın legitim hüquqlarını pozurdu”.

❑ **“Yeni Müsavat”**

# ABŞ səfirinin Bakıya 10 ay yubanan təyinatı

## Tramp administrasiyası ilə yüksək səviyyəli əlaqələr amerikalı elçinin tezliklə təsdiqlənəcəyi gözləntisi yaradır - rəy

**ABŞ dövlət katibinin siyasi məsələlər üzrə müavini Alison Hukerin Bakıya səfəri bu ölkənin Azərbaycandakı diplomatik korpus rəhbərinin təyinatının niyə yubanması mövzusunu gündəmə gətirib. “Yeni Müsavat” bildirir ki, xanım diplomatın regiona səfəri “Beynəlxalq Sülh və Rifah üçün Tramp Yolu” layihəsi (Zəngəzur dəhlizi) çərçivəsində gerçəkləşir. Bu səfərin Vaşinqtondan Bakıya yeni səfir təyinatının sürətlənməsinə təsiri olacağı gözləntisi var. ABŞ-nin Azərbaycandakı son səfiri Mark Libbi isə bu ilin yanvarın 18-də ölkəsinə qayıdıb. O, səhhətində olan problemlərlə əlaqədar vəzifəsini tərk edib.**



Hələlik ABŞ-nin Azərbaycanda səfiri yoxdur. Əvvəllər ABŞ Azərbaycana səfir təyinatını müxtəlif səbəblərdən gecikdirib. Elə Mark Libbinin təyinatına qədər 1 ildən çox ABŞ-nin Azərbaycandakı səfirliyi başsız qalıb. Bundan əvvəl də ABŞ Azərbaycana səfir təyinatını gecikdirib. Buna səbəb kimi Senatda olduqca güclü təsirləri olan erməni lobbisinin fəaliyyəti göstərilir. 2009-cu ilin yanvarında ABŞ-nin Azərbaycandakı səfiri Enn Dörsinin səlahiyyət müddəti başa çatdı. Növbəti səfir Riçar Morninqstarın təyinatı bundan 3 il sonra təsdiqləndi.

Bu müddət ərzində Prezident Barak Obama Metyu Brayzanı Senatın icazəsi olmadan təyin etdi və bir ildən sonra Senat onun müddətinin uzadılmasına icazə vermədi. Erməni lobbisinin təsiri altında olan senatorlar Azərbaycan və Türkiyə ilə yaxın əlaqələri olduğu üçün Brayzanın səfir təyin edilməsinə razılıq vermədi. Erməni lobbisi ATƏT-in Minsk Qrupunun keçmiş amerikalı həmsədri olan Brayzanın həyat yoldaşının türk olmasını əsas gətirərək onun fövqəladə və səlahiyyətli səfir təyin edilməsinə imkan vermədi.

Bu ilin yayında ABŞ-nin Gürcüstandakı səfiri Robin Danniqan da diplomatik xidməti tərk edib. Səfirin Gürcüstan hakimiyyəti ilə münasibətləri gərgin idi və rəsmi Tiflis zaman-zaman antidemokratik addımlarda ittiham edirdi. ABŞ-nin Ermənistandakı səfiri Kristina Kvinin də hələ martda vəzifəsini tərk edəcəyi deyilirdi. Amma xanım səfir fəaliyyətini hələ də İrəvanda davam etdirməkdədir.

Birləşmiş Ştatlarda səfirin təyin edilməsi prosesi prezident tərəfindən namizədliyin irəli sürülməsi, baxılması və Senat tərəfindən təsdiqlənməsini əhatə edir. ABŞ prezidenti səfir vəzifəsinə namizədi irəli sürür. ABŞ Konstitusiyasının tələb etdiyi kimi, namizəd Senat tərəfindən təsdiqlənməlidir. Namizədin təsdiqlənməsi üçün Senatda səsvermə tələb olunur. Senator təyinat prosesini qeyri-müəyyən müddətə təxirə sala bilər. Amma yaxın vaxtlarda belə bir müzakirələr gözlənilmir. Gürcüstanla bağlı vəziyyətlə fərqli olsa da, Azərbaycana səfir təyinatının gecikməsi ABŞ-nin Cənubi Qafqazda fəallaşması ilə uyğun gəlmir.

ABŞ-Azərbaycan münasibətləri bu gün yüksələn xətt üzrə inkişaf edir. Prezident Donald Trampın qayıdışı ilə Vaşinqtonun siyasəti daha çox real və məntiqli maraqlara əsaslanmağa başlayıb. Azərbaycan ABŞ üçün həm etibarlı enerji tərəfdaşı, həm də Cənubi Qafqazda mühüm geosiyasi aktordur. İki ölkə arasında enerji layihələrindən tutmuş, nəqliyyat və kommunikasiya dəhlizlərinə qədər geniş əməkdaşlıq imkanları mövcuddur. Belə bir siyasi ortamda səfirin olmaması ABŞ Dövlət Departamentinin bir qədər də qeyri-peşəkar yanaşması təəssüratı yaradır.

Bəs Ağ Ev administrasiyası niyə səfir təyinat prosesini bu qədər yubadır?

**“Yeni Müsavat”a danışan siyasi ekspert Oqtay Qasımov** qeyd etdi ki, ABŞ-nin səfir təyinatının yubanması Azərbaycan ictimaiyyətində ciddi siyasi detal kimi qiymətləndirilir. Onun fikrincə, Bayden dövründə belə halın yaşanması anlaşılan idi: “Çünki həmin dönəmdə münasibətlər gərgin idi və bu administrasiya Ermənistanla normallaşma prosesində birtərəfli, qərəzli mövqe tuturdu. Tramp hakimiyyəti dövründə isə əlaqələr kifayət qədər yaxşılaşıb. Xüsusən də 8 avqust görüşü ilə yeni mərhələyə daxil olmuşuq, strateji tərəfdaşlıq və əməkdaşlıqla bağlı işçi qrup yaradılıb, "907-ci düzəliş" dayandırılıb. Əlbəttə ki, ABŞ kifayət qədər mürəkkəb dövlət mexanizmi olan ölkədir. Nəzərə alaq ki, səfir təyinatı da müəyyən prosedurları keçməlidir. Yəni bu proses kifayət qədər çətindir”.

**O.Qasımov vurğuladı ki, səfir təyinatlarında, hansı çətinliklər yarandığını xatırlayırıq:** “Konqresdə və Senatda bu təyinatlar ermənipərəst üzvlər tərəfindən bloklana bilir. Biz bunu Metyu Brayza nümunəsində görmüşük. Məncə, yeni səfirlə bağlı qərar qəbul edilməyib. Bəzi media resurslarında namizədlərin adları da hallanıb, amma nə qədər səhih informasiyalar olduğunu söyləmək çətindir. Tramp komandası daha ciddi beynəlxalq problemlərlə məşğul olduğuna görə səfir təyinatında gecikmə var. Lakin səfir oldu-olmadı, Vaşinqtonla əlaqələr sürətlə inkişafdadır. Yaxın günlərdə ABŞ dövlət katibinin müavini də Azərbaycana gələcək. Düşünürəm ki, yaxın dönəmdə namizəd səfirin adı açıqlanacaq və Konqresdə müzakirələrdən sonra təsdiqlənəcək. Sadəcə, görünür ki, zamana ehtiyac var. Bununla belə, səfirsiz də Azərbaycan-ABŞ münasibətləri tarixinin ən yaxşı dövrünü yaşamaqdadır. Azərbaycan bu əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsində maraqlıdır. Eyni zamanda ABŞ üçün Azərbaycan Cənubi Qafqazda mühüm bir ölkədir. Hazırda regiondakı proseslər və "Tramp marşrutu" layihəsi bunu daha da zəruri etməkdədir".

Onu da deyək ki, Vaşinqton ABŞ-nin Azərbaycanda səfirliyinə müvəqqəti işlər vəkili təyin edib. Bu vəzifəni Emi Karlon daşıyır. Buna qədər isə ABŞ mediası və ekspert dairələri səfir təyinatının gecikməsində erməni lobbisinin Senatdakı təzyiqlərini əsas amillərdən biri kimi göstərmişdi. Xüsusilə Kaliforniya, Nyu-York və Massaçusets kimi ştatlardan olan erməni əsilli senatorlar və onların müttəfiqləri, Azərbaycana yeni səfir təyinatını müxtəlif bəhanələrlə əngəlləyirdilər. Onlar keçmiş Qarabağ münaqişəsi, insan haqları, media azadlığı və demokratik institutların durumu kimi məsələləri əsas gətirərək, Azərbaycanla diplomatik yaxınlaşmanın sürətlənməsinə qarşı çıxırdılar.

❑ **Emil SALAMOĞLU, “Yeni Müsavat”**

# Vahid Ələkbərovun milyardları uğrunda mübarizə - biz niyə yoxuq...

## Rusiyanın nəhəng "Lukoil" şirkəti sanksiyalara tab gətirmədi, ölkəmizdəki obyektləri də çökdü; Azərbaycan onun xarici aktivlərinə iki səbəbdən maraq göstərmir - iqtisadçı izahı

**ABŞ Maliyyə Nazirliyi "Lukoil"in xarici aktivlərinin satışı üçün icazəni bu il dekabrın 13-dək uzadıb. Neft nəhənginin Bolqarıstandakı aktivləri üçün bu müddət gələn ilin apreli müəyyən edilib, Qazaxıstandakı aktivləri isə sanksiyalardan tamamilə azad edilib.**

"Yeni Müsavat" qeyd edir ki, "Lukoil"in xarici aktivləri 12-15 milyard dollar dəyərində qiymətləndirilir. Rusiya şirkəti bildirib ki, hazırda bir neçə potensial alıcı ilə danışıqlar aparılır, yekun razılaşmalar əldə edildikdən və lazımi tənzimləyici təsdiqlər alındıqdan sonra konkret sövdələşmə elan olunacaq. "Lukoil" törəmə şirkətləri vasitəsilə Avropadakı iki neft emalı zavoduna (Rumıniyada və Bolqarıstanda) tam sahiblik edir, həmçinin Hollandiyadakı Zeeland neft emalı zavodunda 45% paya malikdir. Şirkət həmçinin ABŞ və Avropa da daxil olmaqla, 20 ölkədə 2400 yanacaqdoldurma məntəqəsindən ibarət geniş şəbəkəyə malikdir.

Beynəlxalq treyder "Gunvor" "Lukoil"ə şirkətin bütün xarici aktivlərini almaq niyyətini bildirib. Lakin ABŞ Maliyyə Nazirliyi bu şirkətin Rusiya ilə əlaqələrini əsas gətirərək alqı-satqı əməliyyatına icazə verməyib. Bundan dərhal sonra mediada "Lukoil"in xarici törəmə şirkətləri üçün müxtəlif iddiaçılar, əsas namizəd Amerika investisiya fondu "Carlyle Group" haqqında məlumatlar yayılmağa başladı. Dünyanın ən böyük özəl kapital şirkətlərindən biri olan "Carlyle Group" 474 milyard dollar dəyərində aktivlərin idarə edir və maliyyə xidmətləri göstərir.

Şirkət bu məlumatı şərh etməyib, lakin Qərb ekspertləri qeyd ediblər ki, "Gunvor"dan fərqli olaraq, "Carlyle Group"un sövdələşmə icazəsi almaq üçün şansı çoxdur. Bundan başqa, iki xarici şirkət də "Lukoil"in Rumıniyadakı aktivlərini almaq niyyətində olduqlarını rəsmən bəyan ediblər. Bu şirkətlər Rumıniya bazarında artıq mövcud olan Macarıstanın "MOL Qrup"u, Yunanıstanın "Hellenic Petroleum"dur. "Lukoil" dekabrın 13-dək "Şahdəniz" qaz-kondensat layihəsindəki 19,99 faiz payını satmağa çalışacaq, çünki şirkət layihə üzrə öhdəliklərini yerinə yetirmək istəmir. Bu barədə Haqqın.az-a məlumatlı mənbədən bildirilib.

Yeri gəlmişkən, Azərbaycandakı sürücülər "Lukoil" neft şirkətinə aid olan yanacaqdoldurma məntəqələrində kartla ödəniş edə bilmədiklərindən şikayətlənirlər. Sürücülərin sözlərinə görə, "Lukoil" məntəqələri yalnız nağd pul qəbul edir. Haqqin.az-ın sorğusuna cavab olaraq, şirkətin Azərbaycan ofisinin əməkdaşı ödəniş terminallarının şirkət sanksiyalar altında olduğu üçün işləmədiyini bildirib.

Sanksiya təzyiqi şirkətin Azərbaycandakı nümayəndəliyinə də təsir göstərir. "Lukoil Azərbaycan" sanksiya siyahısına daxil edilməsə də, ABŞ-nin məhdudiyyətləri maliyyə əməliyyatları üçün risk yaradır, çünki dollarla hesablaşmalar və beynəlxalq banklarla qarşılıqlı əlaqələr problemli hala gəlir.

"Lukoil"in Azərbaycandakı bəzi layihələrinə sanksiyalar rejimindən istisnalar tətbiq edilib. 14 oktyabr 2027-ci ilə qədər məhdudiyyətlər şirkətin "Azəri-Çıraq-Günəşli", "Şahdəniz" və Xəzər qaz kəmərləri kimi böyük enerji layihələrindəki fəaliyyətinə şamil edilmir. Lakin bu istisnalar yalnız Böyük Britaniya sanksiyalarına aiddir. ABŞ-nin sanksiya paketi oxşar yumşalmanı əhatə etmir.



ABŞ sanksiyalarının güclənməsi səbəbindən Azərbaycan faktiki olaraq "Lukoil"dən neft alışını dayandırıb.

Azərbaycan bu şirkətin xarici aktivlərinə heç bir maraq göstərmir. Bunun səbəbi nə ola bilər?

**ReAl Partiyasının sədri, iqtisadçı Natiq Cəfərlinin "Yeni Müsavat"a bildirdiyinə görə, bununla bağlı müəyyən danışıqlar gedə bilər:** "Belə müzakirələrin getdiyini istisna etmirəm. Sadəcə, bu aktivləri kim alacaq? Ancaq SOCAR ala bilər. O da problemli aktivlərdən kənarda dayanmağa çalışır. Azərbaycanda elə böyük şirkətlər, milyarder iş adamları da yoxdur ki, həmin xarici aktivləri "Lukoil"dən alsın. Ona görə deyirəm ki, buna yalnız SOCAR namizəd ola bilər".

**İqtisadçı qeyd edib ki, Azərbaycanda böyük bank, yaxud dövlət bankı xarici aktivləri bəlkə almaq istəyə bilər**: "Məsələn, Qazaxıstanda bir neçə özəl şirkət var ki, bunla maraqlanırlar. Bizdə elə özəl şirkətlər də yoxdur. SOCAR-ın isə buna marağı görünmür. Lakin ola bilər ki, danışıqlar gedir, sadəcə, bu haqda ictimaiyyətə açıqlama verilmir".

**Siyasi ekspert Ramiyə Məmmədova "Lukoil"in sanksiyalar qarşısında tab gətirmədiyini və qısa müddətdə çökdüyünü müşahidə edir. Onun fikrincə, Putinin şəxsi müharibəsi Rusiyada oliqarxları müflis etməkdədir**: "Trampın sanksiya qərarı "Rosneft" və "Lukoil"ə tətbiq edildi. Bu, təsadüfi deyildi. Birləşmiş Ştatların Rusiyanın neft sənayesinin ürəyindən nişan aldı. Əgər Kreml lideri Ağ Ev başçısının Ukraynada qoşunların olduqları yerdə dayanmaq şərtini qəbul etsəydi, Rusiya bu hadisələrdən müəyyən uduşla çıxardı. Bundan sonra Rusiyanın neft sektoru daha da iflic ediləcək. Ukrayna dronları hər gün dərinliklərdə olan neft emalı zavodlarını yandırır. Bu da həm dövlətin iqtisadiyyatına, həm də Vahid Ələkbərova və 100-dən çox rusiyalı oliqarxa dəyən zərbədir".

**Təhlilçi Azərbaycanın "Lukoil"in xarici aktivlərini alacağını istisna etmir, sadəcə, bunun xərcləri ilə iqtisadi dividentləri araşdırılmalıdır:** "Məsələn, bugünlərdə məlum oldu ki, İraqın Bəsrə şəhərində fəaliyyət göstərən "Lukoil" şirkətinin əməkdaşları maaşlarını ala bilmir. Ümumiyyətlə, ABŞ-nin yeni sanksiyalarının tətbiqindən sonra "Lukoil" İraq yatağında fövqəladə vəziyyət elan edib. Yəni şirkət Rusiya vətəndaşlığı olmayan bütün xarici işçilərlə əməkdaşlığı dayandırıb. Ona görə Azərbaycan araşdırmalı və müqayisə aparmalıdır ki, xarici aktivləri almaq nə qədər faydalıdır. Təbii ki, buna iqtisadçılar daha aydın cavab verə bilər, amma Azərbaycanda xarici aktivləri ala biləcək enerji şirkətləri yoxdur. Üstəlik, "Lukoil" Trampın hədəfindədir, faktiki sanksiyalardan yaralı vəziyyətdədir. Belə olan halda, onu götürmək və dirçəltmək nə qədər mümkündür?!"

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"**

# "Azeri Light" və rus nefti ucuzlaşdı

## Rusiya neftinin qiyməti 2023-cü ilin martından bəri ən aşağı səviyyəyə - 36,61 dollara düşüb

**ABŞ Prezidenti Donald Trampın təhdidlərinə baxmayaraq, Hindistan Rusiya neftini almağa davam edib.**

"Cebhenfo.az" bu barədə "Financial Times" (FT) qəzetinə istinadən yazır.

Enerji və Təmiz Hava Tədqiqatları Mərkəzinin məlumatına görə, Hindistan ötən ay Rusiyadan 3,1 milyard avro dəyərində qazıntı yanacağı alıb və Çindən sonra ikinci ən böyük alıcı olub. Xam neft xərcləri aylıq müqayisədə 11 faiz artaraq 2,5 milyard avroya çatıb.

Bu məbləğin üçdə ikisi özəl neft emalı zavodları tərəfindən xərclənib. Bu arada, dövlətə məxsus neft emalı zavodları oktyabr ayında əvvəlki aya nisbətən həcmini təxminən iki dəfə artırıb.

Son aylarda Tramp Hindistana Rusiya neftini almağı dayandırmaq üçün təzyiqi artırıb.



Avqust ayında o, Nyu-Dehliyə tarifləri 50 faizə qədər artırıb. Ağ Ev Hindistan Rusiya neftinin idxalını azaltdıqdan sonra idxal tariflərini azaltmağa söz verib. Tramp bu tariflərin hansı səviyyəyə qaldırılacağını dəqiqləşdirməyib.

Dekabr ayında ABŞ Rusiyanın ən böyük neft şirkətlərinə qarşı sanksiyalar tətbiq edərək xam neftin konkret alıcılarını təhlükəyə atıb. Bu il Rusiyanın ümumi neft idxalının təxminən üçdə ikisini təşkil edən Hindistanın ən böyük beş neft emalı zavodunun sahibi yeni müqavilələri ləğv edib.

Bu arada Rusiya neftinin qiyməti 2023-cü ilin martından bəri ən aşağı səviyyəyə- 36,61 dollara düşüb. Analoji vəziyyət Baltik dənizində hasil edilən neftdə də müşahidə olunub.

Yeri gəlmişkən, "Azeri Light" markalı Azərbaycan neftinin 1 barelinin qiyməti 0,01 ABŞ dollar azalıb. Dünya bazarında "Azeri Light" markalı Azərbaycan neftinin 1 barelinin qiyməti 0,01 ABŞ dolları, yaxud 0,01 % azalaraq 67,93 ABŞ dolları təşkil edib. Azərbaycanın builki dövlət büdcəsində bir barel neftin orta qiyməti 70 ABŞ dollarından hesablanıb. Xatırladaq ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb.

Bu ilin yanvar-oktyabr aylarında Azərbaycandan 21 ölkəyə 20 milyon 754 min 593,06 ton həcmində neft ixrac olunub. Bu barədə Dövlət Gömrük Komitəsi xəbər yayıb. Hesabat dövründə Azərbaycanın neft ixrac etdiyi TOP-5 ölkələr sırasına İtaliya, Çexiya, Xorvatiya, Almaniya və Rumıniya daxil olub. Bu ilin 10 ayında Azərbaycan İtaliyaya 6 milyard 231 milyon 517,13 min ABŞ dolları dəyərində 12 milyon 77 min 423,52 ton, Çexiyaya 701 milyon 374 min ABŞ dolları dəyərində 1 milyon 307 min 899,13 ton, Xorvatiyaya 634 milyon 647,77 min ABŞ dolları dəyərində 1 milyon 187 min 550,72 ton xam neft ixrac edib. Almaniyaya 502 milyon 18,65 min ABŞ dolları dəyərində 956 min 716,48 ton və Rumıniyaya 475 milyon 935,69 min ABŞ dolları məbləğində 869 min 568,72 ton neft tədarük edilib.



# Metal artırma üzərində gəzişərkən

Zamin HACI
zaminhaci@gmail.com

*"İnsan heç bir iş görməyəndə hər şeyə cavabdeh olduğunu fikirləşir"*
*(Jan Pol Sartr)*

**Son illərdə söz azadlığının inkişafı sayəsində mediamızda yeni jurnalistika janrı əmələ gəlmişdir. Nəsə təkzib olunur, ancaq zəhmətkeşlər nəyin təkzib edildiyini bilmirlər. Bunu açıqlamaq məqsədəuyğun sayılmır. Bu bir qədər də mənə sovet dövrünü xatırladır, o vaxt hər yerdə bizə yoldaş Engelsin "Anti-Dürinq" əsərindən bəhs olunurdu, lakin həmin kommunizm düşməni Dürinq kimdir, nə qələt qarışdırıb - bilmirdik.**

Sayın FHN idarəmizin təzə bir izahatı məhz bu janra uyğun gəlirdi. Deyir Suraxanı rayonunda kimlərinsə şikayətləri var, ancaq onlar qanuna uyğun deyildir, xidməti evləri haqlı olaraq boşaltmışıq, nazirliyin balansına qaytarmışıq, məhkəmə qərarı var və sairə. Mən də bunu belə təxmin elədim ki, FHN işçiləri Suraxanıda 7 mənzildə yaşayıblar, indi işdən çıxarılıblar, məcbur evləri də tərk etməliymişlər.

Bəlkə tam olaraq belə deyildir. Astronomiyada qara dəliklər barədə nəzəriyyə də təxminən buna oxşayır: işıq həmin ərazidən keçəndə qravitasiya sahəsinin təsiri ilə əyilir. Yəni tam olaraq həmin şey dəlikdirmi, maddədirmi - heç kim bilmir. Türkün sözü, dalında nə var bilmirik. (Hətta belə düşünənlər var ki, bizim indi içində yaşadığımız Kainat özü qara dəliyin içərisindədir. Açığı, həyatımıza baxanda mən buna daha çox inanıram).

Hesab edirəm ki, bu şərait, yaranmış situasiya sayın fövqəladə hallar idarəmizin nüfuz və imicinə uyğun gəlmir. Axı ilin-günün bu vaxtında kimlərisə mənzildən çıxartmaq olmaz. Lap xidməti mənzil olsun. Niyə onlar xidmət keçərkən özlərinə ev alacaq qədər pul toplaya bilməmişdir? Bunun üzərində düşünmək lazımdır. Adamın küçədə qalması fövqəladə hallardan biri deyilmi? Bəs səni küçəyə atan fövqəladə hallar özüdürsə?

Şəxsən mən bunu sayın Kamal müəllimin incə sənətkar ruhuna yaraşdırmadım. İndi biz "Səndən nigaranam" mahnısına necə qulaq asaq, əgər Suraxanıdakı əhalinin durumundan nigaran qalmışıqsa?

Özü də, yenə xüsusi qeyd edirəm, idarənin zəhmətkeşlərimizə diqqət və qayğısı həmişə yüksək səviyyədə olubdur. Məsələn, elə dünənləri Gəncə çayının qırağından bir kişini çıxarırdılar. Yaxud bu yaxınlarda Bakının Nizami rayonunda çox şübhəli bir nəfəri xilas etmişdilər. İnanmırsınızsa, FHN-in məlumatından sitatı olduğu kimi burada yazıram: "Hadisə yerində əməliyyat şəraiti qiymətləndirilərkən vətəndaşın beşmərtəbəli yaşayış binasının 4-cü və 5-ci mərtəbələrinin eyvanları arasında yerləşən metal artırmanın üzərində köməksiz vəziyyətdə qaldığı müəyyən edilib. Müvafiq təhlükəsizlik tədbirləri görüldükdən sonra vətəndaş xilasedicilər tərəfindən yerə düşürülərək xilas edilib". Bəs bu yoldaş orada nə edirmiş, heç maraqlanmayıblar. Axı biz özümüz də hər gün 4 və 5-ci mərtəbələr arasındakı metal artırma üzərində gəzişmirik. İdarə isə sorğu-sualsız, böyük səmimiyyət və inamla, xalqa sevgi və ümidlə qabağına kim çıxsa xilas edir! İstər oğru ol, istər aşiq, istər məmur ol, istər sərxoş, istər köşə yazarı ol, istər demaqoq, lap Hörümçək adam ol - hamının dadına çatmaq FHN-in başlıca məqsədlərindən biridir! (Bəlkə də bu köşəyə yaxşı musiqi bəstələmək mümkündür).

Aşiq demişkən, FHN yanğın idarəsi müdirinin bir köməkçisi var idi, polkovnik Zaur müəllim, srağagün onu da azadlığa buraxmışlar. Zaur müəllim idarədə işçilərin şəxsi yanğınını söndürürdü, xalqımız onu bu cür əziyyətlərinə görə tanımışdı. Bəs indi onu əski görəvinə bərpa etmək mümkündürmü? Söz əlaqədar təşkilatlarındır.

Bir də ən son aqrar məlumat əldə etmişəm. FHN generallarının şabalıd alverində 3 milyon dollar ziyana düşməsi haqda dəyərli oxucularımıza məlumat vermişdik. Məhkəmə ifadələrindən öyrəndim ki, onlar tək şabalıd yox, Balakəndən xurma alveri də ediblər.

Bu artıq, nə gizlədim, kənd təsərrüfatımız haqqında tam yeni informasiyadır.



# Rubionun müavini Bakıda - "907-ci düşəliş"in ləğvi niyə uzanır?

## Milli Məclisin komitə sədri Səməd Seyidovun rəhbərliyi ilə bir qrup diplomat Vaşinqtona gedib; ABŞ-Azərbaycan strateji tərəfdaşlığının qarşısında ciddi maneə...

**ABŞ dövlət katibinin siyasi məsələlər üzrə müavini Alison Hukerin Bakıya səfəri Zəngəzur dəhlizi ilə bağlı olsa da, Azərbaycan "907-ci düzəliş"in ləğvini də gündəmə gətirə bilər, çünki bu, iki ölkə münasibətlərinin inkişafına ciddi şəkildə mane olaraq qalır. Son olaraq ABŞ Müdafiə Nazirliyinin "Stars and Stripes" nəşri Konqresi "907-ci düzəliş"i ləğv etməyə və TRIPP layihəsinin uğurunu möhkəmləndirməyə çağırıb.**

Bəllidir ki, bu düzəliş Ermənistanla Azərbaycan arasında münaqişə dövründə erməni diasporunun təsiri altında qəbul edilib. Düzəlişin birdəfəlik ləğvi haqda çox danışılsa da, bu günədək Azərbaycana birbaşa yardım göstərilməsini məhdudlaşdıran düzəliş yalnız "illik" dondurulur, halbuki birfəfəlik ləğvi zəruridir. ABŞ-nin özündə də bu qanunun Amerikanın milli maraqlarına yük olduğu, xüsusilə də ölkənin Cənubi Qafqazda və Yaxın Şərqdə daha fəal rol oynamaq istədiyi indiki mərhələdə bu maddənin maneə yaratdığı barədə fikirlər getdikcə daha çox səslənir. Ekspertlərə görə, "907-ci düşəliş"in ləğvi proseduru olduqca mürəkkəbdir. Yəni hüquqi baxımdan bu, çox çətin prosedurdur və heç kim bununla məşğul olmaq istəmir. Elə buna görə də "907-ci düzəliş" hələ də ləğv edilməyib və qanun kimi qüvvədə qalır.

Bu problemin necə həll olunacağını söyləmək çətindir.

Milli Məclisin Komitəsinin sədri Səməd Seyidovun rəhbərliyi ilə diplomatlardan ibarət nümayəndə heyəti iki gün öncə Vaşinqtona səfər edib. Səfər çərçivəsində Ağ Evdə, Dövlət Departamentində, Konqresdə ABŞ-nin rəsmi şəxsləri il, konqresmenlərlə görüşlər keçirilib. Siyasi analitiklərin fikrincə, nümayəndə heyətinin keçirdiyi görüşlərdə "907-ci düzəliş"in ləğvi məsələsinin də müzakirə edildiyi istisna deyil. Avqustun 8-dən sonra Azərbaycan-ABŞ əlaqələrində yeni mərhələ başlayıb. Həmin gün imzalanan sənədlərin içərisində olan üç əsas istiqamətdən biri ABŞ və Azərbaycan arasında əlaqələrin inkişafı, o cümlədən strateji tərəfdaşlıq sənədinin imzalanmasıdır. İki ölkə arasında strateji tərəfdaşlıq qurulursa "907-ci düzəliş" kimi münasibətlərə xələl gətirən sənəd tamamilə ləğv edilməlidir. Nümayəndə heyətinin görüşlərində məsələnin bu şəkildə qoyulması tamamilə əsaslı olardı.

**Politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a bildirdi ki, 1992-ci ildə "907-ci düzəliş" qəbul ediləndə bu, Azərbaycana qarşı ədalətsizlik idi:** "Çünki işğalla biz üzləşmişdik. Amma ABŞ Konqresi erməni lobbisinin dəstəyi ilə işğalçını dəstəkləyən bir düzəliş qəbul etdi. Məsələnin mahiyyətinə varmadan Azərbaycan əleyhinə sənəd qəbul olundu. 2001-ci ildə ABŞ-yə qarşı məlum böyük terror hadisəsindən sonra ABŞ prezidenti bu düzəlişi dondurdu. Çünki bir sıra dövlətlərlə yanaşı, Azərbaycanın terrora qarşı mübarizədə dəstəyinə ehtiyac var idi. Amma elə ki, Əfqanıstan əməliyyatı bitdi, ABŞ-nin keçmiş prezidenti Co Bayden "907-ci düzəliş"i yenidən qüvvəyə mindirdi. Bu da ikinci bir ədalətsizlik yanaşmaydı. İndi prezident Donald Tramp bu il həmin sənədi dondurub. Lakin dondurmaq azdır, məsələnin birdəfəlik həllinə ehtiyac var. Əgər ABŞ Azərbaycanla strateji tərəfdaşlıq münasibəti qurursa, Tramp yolu reallaşacaqsa "907-ci düzəliş"in ləğv olunmaması məntiqsiz olar. Hesab edirəm ki, erməni lobbisi və konqresmenlər "907-ci düzəliş"dən asanlıqla imtina etməyəcəklər. Ancaq 2028-ci ildə Zəngəzur dəhlizi-Tramp yolu işə düşəndən sonra bu düzəlişin mövcud olması tamamilə məntiqsiz olacaq. Artıq bu halda məsələnin köklü həllinə daha böyük ehtiyac yaranacaq. Dövlət katibinin müavini Alison Hukerin də Bakıda diqqətinə bu məsələ şübhəsiz çatdırılacaq. Trampa hazırlanan hesabatlarda da bu məsələ vurğulanacaq. Amma sözügedən düzəlişin ləğvini Konqres həyata keçirməlidir. Düşünürəm ki, 2028-ci ildə dəhliz işə düşəndən sonra biz bu məsələnin də birdəfəlik həllinə nail ola bilərik".

**Siyasi ekspert Aqil Məmmədov** bildirdi ki, ABŞ dövlət katibinin siyasi məsələlər üzrə müavini Alison Hukerin regiona səfərinin başlıca məqsədinin Zəngəzur dəhlizi və yaxud TRUMP yolunun və regionda nəqliyyat-kommunikasiya xətlərinin açılması məsələlərinin müzakirəsi olduğu qeyd edilir. Ancaq bu tip səfərlər təkcə texniki məsələlərin deyil, eyni zamanda ikitərəfli münasibətlərdə aktual olan və münasibətlərin irəliləməsinə mane olan məsələlərin də müzakirəsi baxımından vacibdir: "Ona görə istisna etmək olmaz ki, Bakıda rəsmi təmaslar zamanı "907-ci düzəliş"in tamamilə ləğvi məsələsi gündəmə gəlsin. Ümumiyyətlə, 2025-ci il Bakı-Vaşinqton xəttində yeni bahar dönəminin başlaması ilə xarakterizə edilir və hər keçən gün münasibətlə istiləşir. Ona görə bu münasibətləri sərinləşdirə biləcək məsələlərin həlli vacibdir ki, onlardan biri və birincisi "907-ci düzəliş"in tamamilə ləğv edilməsidir. Ağ Evdə və Vaşinqtonun xarici siyasətinə cavabdeh ofislərində alayırlar ki, artıq bu düzəliş real vəziyyəti əks etdirmir və Azərbaycanla əməkdaşlığın dərinləşməsinə süni şəkildə maneə yarada bilər.

Vaşinqtonda Ağ Evdə Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin paraflanması və Bakı ilə İrəvan arasında bir başa dialoq kanallarının qurulması ilə "907-ci düzəliş"in qəbulu üçün icad edilmiş bəhanələri tamamilə aradan qaldırıb. Yeni reallıqdan faydalanaraq ABŞ də Cənubi Qafqazda sabitlik və kommunikasiya layihələrində iştirak etmək istəyini nümayiş etdirir. ABŞ-nin bu istəyi Bakı və İrəvan tərəfindən xoş qarşılanır, ancaq xoş niyyət yalnız birtərəfli olmaz, gərək qarşı tərəfə bu xoş niyyətə cavab olaraq gözləntiləri doğrultsun. Bunun üçün də "907-ci düzəliş"in tamamilə ləğv edilməsi vacibdir".

**A.Məmmədov qeyd etdi ki, praktik olaraq Azərbaycanın müstəqillik illərində sürətli inkişafına, iqtisadi cəhətdən dayanıqlı olmasına bu düzəliş heç bir maneə olmayıb:** "Sadəcə, ATƏT-in Minsk Qrupu kimi, bu düzəliş də keçmişdən qalan, əhəmiyyətini itirmiş bu qərardır və "907-ci düzəliş" yeni mərhələdə etibarlı əməkdaşlığın formalaşdırılması üçün Minsk Qrupu kimi tarixin zibilliyinə göndərilməlidir".

**Ekspert onu da dedi ki, məsələnin prosedur qaydaları elədə çətin deyil, sənəd hazırlanıb Konqresin hər iki palatasından keçirilib, prezident tərəfindən təsdiq edilməlidir:** "Ancaq buna mane olan məsələ Konqresdə Respublikaçılarla Demokratlar arasında mövcud fikir ayrılıqlarıdır. Bu fikir ayrılığı konkret Azərbaycana münasibət və region siyasəti ilə bağlı deyil. Bu fikir ayrılığı iki partiyanın ara seçimləri arasında səs uğrunda mübarizəsindən qaynaqlanır. Konqresdə təmsil edilən partiyalar real siyasi iradə göstərdiyi anda qərar prosedur olaraq qısa müddətdə icra edilə bilər. Konqres regionda hansı siyasi xətti seçəcəyini müəyyən etməlidir. Köhnə stereotipləri qorumaq, yoxsa yeni reallığı qəbul edərək tərəfdaşlığın daha rasional əsaslara keçməsinə kömək etmək? Bu mövzu yaxın gələcəkdə Bakı-Vaşinqton xəttində mühüm maddələrdən biri olacaq".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 209 (8819) 19 noyabr 2025

# Sülhməramlılarımızın Qəzzaya yolu açıldı - Bakının qərarı

## BMT Təhlükəsizlik Şurasının qətnaməsindən sonra sülhyaratma missiyasının tərkibi yenidən gündəmə gəlib - Özbəkistan, Qazaxıstan və Qırğızıstan kimi türk və müsəlman ölkələrinin iştirakı da mümkündür

**BMT Təhlükəsizlik Şurası ABŞ Prezidenti Donald Trampın Qəzza zolağı ilə bağlı sülh planına dair qətnamə layihəsini səsverməyə çıxarıb. Artıq qətnamə qəbul olunub. Bu münasibətlə Ağ Ev sahibi dünyanı təbrik edib. ABŞ prezidenti bu hadisənin BMT tarixində ən vacib hadisələrdən biri kimi tarixə düşəcəyinə inanır. O, qərarın "daha böyük sülhə gətirib çıxaracağını" və "həqiqətən tarixi əhəmiyyətə malik bir an olacağını" bildirib. Tramp əlavə edib ki, Sülh Şurası yaxın həftələrdə ən nüfuzlu ölkələrin nümayəndələrindən formalaşdırılacaq.**



Trampın planına əsasən, keçid dövründə Sülh Şurası Qəzzanın xarici idarəçiliyini öz üzərinə götürəcək. BMT-dəki səsvermənin nəticəsi Azərbaycan üçün də ciddi əhəmiyyət kəsb edirdi. Çünki ABŞ Qəzza zolağında beynəlxalq sabitləşdirmə qüvvələrinə Azərbaycan sülhməramlılarının daxil olmasını da istəyir.

BMT-nin qərarına baxmayaraq, Qəzza zolağında hələ bir çox məsələlər aydın deyil. HƏMAS silahlı strukturlarını saxladığı müddətdə sülhməramlıların Qəzzaya daxil olması böyük riskdir.

Xatırladaq ki, "İsrail-Hayom" qəzetinin məlumatında bildirilirdi ki, Qəzzaya göndəriləcək sülhməramlıların özəyini Azərbaycan və İndoneziya təşkil edə bilər. "Politico" nəşri isə bir neçə ölkənin Qəzzada yaradılması planlaşdırılan beynəlxalq sabitlik qüvvələrinə qoşulmaq üçün əsas namizəd ölkələrin Azərbaycan, İndoneziya və Pakistan olduğunu yazmışdı.

Azərbaycan sülhməramlı bölüyü 2003-2008-ci illərdə 152 nəfərlik şəxsi heyətlə İraqda beynəlxalq koalisiya qüvvələri tərkibində xidmət edib. 2009-cu il tarixdə Azərbaycan Ordusunun 90 nəfərlik sülhməramlı kontingenti Əfqanıstanda Türk taboru tərkibində fəaliyyət göstərib. Azərbaycan Ordusunun sülhməramlı qüvvələri 27 avqust 2021-ci ildə ölkəyə geri dönüb. Hazırda Azərbaycanın hər hansı xarici ölkə ərazisində sülhməramlı qüvvələri fəaliyyət göstərmir.

Azərbaycanın Qəzzada sülhməramlı iştirakı mümkündürmü?

**AMİP Ali Məclisinin sədri, politoloq Rəşad Bayramov** "Yeni Müsavat"a dedi ki, qətnamənin ən mühüm elementi Sülh Şurası adlanan müvəqqəti idarəetmə strukturunun yaradılmasıdır. Azərbaycan sülhməramlılarının mümkün iştirakı isə məsələnin regional ölçüsünü genişləndirir: "ABŞ və İsrail mənbələrinin Azərbaycanı əsas namizəd ölkələr sırasında göstərməsi təsadüfi deyil. Azərbaycan həm müsəlman ölkə olaraq Qərb və Şərq arasında körpü rolunu oynaya bilər, həm də İraq və Əfqanıstan missiyalarındakı təcrübəsi ilə sabitləşdirmə əməliyyatlarına töhfə verə bilər. Azərbaycanın mövqeyi ondan ibarət olub ki, bu missiyada iştirak yalnız BMT-nin dəqiq mandatı və tam atəşkəs şəraitində mümkündür. Bu da real siyasi hesablama ilə bağlıdır - Azərbaycanın regionda balanslı diplomatiyası, İsrail və Fələstinlə əlaqələri, eləcə də hərbi personalın təhlükəsizliyi kimi faktorlar Bakının qərarını ehtiyatlı edir. Azərbaycan üçün şəxsi heyətin təhlükəsizliyi vacib məsələdir. Nəticədə Sülh Şurasının Qəzzada nə dərəcədə effektli olacağına dair sual hazırda həm siyasi, həm də təhlükəsizlik baxımından açıq olaraq alır. Planın üstünlüyü ondan ibarətdir ki, illərlə davam edən münaqişəni beynəlxalq legitimlik çərçivəsində tənzimləməyə cəhd edilir. Amma risklər də bir o qədər böyükdür - silahlı qrupların müqaviməti, regional güclər arasındakı ziddiyyətlər, yerli əhalinin reaksiyası və s. Buna görə də yaxın aylarda Qəzzada müvəqqəti idarəetmənin necə qurulacağı təkcə Yaxın Şərqin yox, beynəlxalq təhlükəsizlik sisteminin gələcək istiqamətləri üçün də həlledici olacaq".

**Mövzu ilə bağlı "Müasir İnkişaf" İctimai Birliyinin sədri, siyasi şərhçi Mübariz Göyüşlü də bildirib ki, bu, çox ciddi məsələdir:** "Fələstin məsələsi, Qəzzada sülh və sabitliyin əldə olunması kifayət qədər mürəkkəb bir mexanizmdən və mürəkkəb həll yolundan ibarət olan bir prosesdir. Bu mürəkkəbliyi yaradan amillərdən biri sülhməramlı qüvvələrin tərkibinin müəyyənləşdirilməsidir - yəni hansı ölkələrdən ibarət olacaq, kimlər iştirak edəcək. Bundan daha vacibi isə Fələstində, Qəzzada tam sabitliyin bərqərar olunmasıdır. Çünki orada hələ də gərginlik davam edir: İsrailin hücumları davam edir, HƏMAS-ın müqaviməti qalır. Belə bir situasiyada digər ölkələr haqqında qəti fikir bildirmək çətindir, amma Azərbaycan hərbçilərinin, sülhməramlı qüvvələrinin ora göndərilməsi və missiyada iştirakı müəyyən çətinliklər yarada bilər. Təbii ki, bu, çoxlu suallar doğurur: tərəflər münaqişə vəziyyətindədir, müharibə gedir, gərginlik var. Belə halda bizim sülhməramlı missiyada iştirakımız necə tənzimlənəcək? Biz çox qızğın və gərgin münaqişənin mərkəzinə düşə bilərik və hesab edirəm ki, bu, Azərbaycan üçün arzuolunan deyil. Əgər BMT Təhlükəsizlik Şurasının yekdil qərarı ilə, BMT-nin aparıcı ölkələrinin razılığı ilə sülh planı, sülhməramlı qüvvələrin tərkibi, mandatı və fəaliyyət çərçivəsi tam şəkildə təsdiqlənərsə, beynəlxalq ictimaiyyət bu məsələ ilə bağlı yekdil mövqeyə gələrsə və bölgədə müəyyən sabitlik təmin olunarsa, o zaman Azərbaycanın bu prosesdə iştirakını mümkün hesab edirəm".

**M.Göyüşlü qeyd edib ki, Azərbaycan əvvəllər İraqda və Əfqanıstanda bu kimi proseslərdə iştirak edib:** "Azərbaycanın kifayət qədər geniş təcrübəsi var. Biz özümüz də müharibə yaşamış, münaqişədən əziyyət çəkmiş bir müsəlman, türk ölkəsiyik. Azərbaycan Silahlı Qüvvələri müharibə dövründə özünü yüksək peşəkarlıqla göstərib. Bu səbəbdən biz başqa bir müsəlman ölkəsində sabitliyin təmin olunmasına töhfə verə bilərik. Düşünürəm ki, bu prosesdə İndoneziya və digər müsəlman ölkələri də iştirak edə bilər. Lakin başda Türkiyə, Pakistan və Azərbaycan olmalıdır. Təbii ki, Özbəkistan, Qazaxıstan və Qırğızıstan kimi türk və müsəlman ölkələrinin iştirakı da mümkündür. Hətta məqsədəuyğun olarsa, Macarıstanın da bu prosesə qoşulmasını məsləhət görərdim. Bu yolla peşəkar, təcrübəli və regiondakı münaqişəli vəziyyətin aradan qalxmasında həqiqi marağı olan ölkələrdən ibarət sülhməramlı qüvvənin yaradılması çox faydalı ola bilər".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**



## "Qara qutu"ların təhlili nə vaxt başa çatacaq?

**Türkiyə milli müdafiə naziri Yaşar Güler keçən həftə Gürcüstanda qəzaya uğrayaraq 20 hərbçinin şəhid olduğu "C-130" hərbi nəqliyyat təyyarəsi ilə bağlı bildirib ki, qəzada əvvəlcə təyyarənin quyruq hissəsi qopub. Bu barədə Türkiyə KİV-ləri məlumat yayıb.**

Jurnalistlərin suallarını cavablandıran milli müdafiə naziri Yaşar Güler quyruq hissəsinin qopmasının ardından təyyarənin üç yerə bölündüyünü söyləyib. Güler deyib: "İlkin tapıntılara görə dəqiq olmamaqla birlikdə əvvəl quyruq qopur. Daha sonra da üç yerə bölünür. Bunlar qara qutudan çıxacaq. "Qara qutu" hazırda TUSAŞ tərəfindən araşdırılır. "C-130"ları 1957-ci ildən etibarən istifadə edirik. 1999-cu ildə bir dəfə mühərrik yanğını çıxmış, salamat enmişdi. Buna görə də ümumilikdə təhlükəsiz bir təyyarədir. Qutuların açılması və ilkin nəticələrə çatma prosesi ən az iki ay çəkər".

Təyyarədə olan FDR (Flight Data Recorder) və CVR (Cockpit Voice Recorder) adlı iki sistemdən ibarət "qara qutu" qəza yerindən bir gün sonra çıxarılıb. Sistem dərhal deşifrə olunması üçün Ankaraya gətirilib.

"Qara qutu"lar hazırda "Türk Havacılık və Uzay Sanayii" (TUSAŞ) müəssisələrində araşdırılır. Bu araşdırmaya Türkiyə Hərbi Hava Qüvvələrinin Qəza-Təhlil Qrupları ilə Kayseri Hava Təchizat Baxım Mərkəzindən gələn mütəxəssislər də qatılır. "Qara qutu" analiz sisteminin TUSAŞ-da olmasının səbəbi təyyarələrə tətbiq edilən ERÇİYES Avionika Modernizasiya Layihəsi çərçivəsində quraşdırılan qara qutuların analiz cihazlarının da burada yerləşməsidir.

# Kremlin İrəvandakı "işığı söndü"

## Paşinyanın Üçkilsə qələbəsi 2026-cı il parlament seçkilərinin anonsu hesab olunur; amma hakim partiya "vint"ləri bərkitməklə daha rahat qələbə qazanmağı hədəfləyir; baş nazir aradan götürülə bilərmi?

**İnzibati mərkəzi Eçmiədzin (Üçkilsə) olan Vaqarşapatda keçirilən yerli seçkilərdə Ermənistanın baş naziri Nikol Paşinyanın partiyasının qalib gəlməsi yaxınlaşmaqda olan parlament seçkilərinin anonsu da sayıla bilər. Nəticələrə əsasən, mütləq çoxluğu təmin edən hakim partiya bələdiyyə sədrini təkbaşına təyin edə biləcək.**

Beləliklə, Nikol Paşinyan hökuməti ilə Erməni Apostol Kilsəsi arasında artan gərginlik fonunda baş tutan səsvermənin nəticələri müxalifətin proqnozlarının əksinə oldu. Paşinyan öz Facebook səhifəsində nəticələri 2026-cı il ümummilli seçkilərinə "rezonanslı müqəddimə" adlandırıb. O, səsverməni onun "suverenliyin və dövlətçiliyin möhkəmləndirilməsi" strategiyasına dəstək kimi qiymətləndirib. O, bu seçkinin nəticələrinin katolikos II Qareginin taleyini də həll edəcəyinə açıq işarə edib.





Müxalifət şərhçiləri isə seçkinin nəticələrini tamam fərqli şərh edirlər. Müxalifətdəki "Birlik qanadları" partiyasından David Ananyan Facebook-da qeyd edib ki, Paşinyanın partiyası "ictimai səs çoxluğu ilə deyil, seçki riyaziyyatı" ilə qalib elan edilib. O vurğulayıb ki, hakim partiya mandatların əksəriyyətini qazansa da, onun nəticəsi (15 298 səs) icmada qeydə alınmış seçicilərin cəmi 21,8%-nin (69 866) dəstəyini ifadə edib. O iddia edib ki, mövcud seçki sistemi "süni çoxluq" yaradır və qalib gələ bilməyən partiyalar üçün verilən səsləri "yandırır". Ananyan bunu 2026-cı il üçün "xəbərdarlıq" adlandırıb: əgər müxalifət parçalanmış vəziyyətdə qalsa, əksəriyyət dəstəyi olmasa belə, hakimiyyət yenə eyni "riyazi məntiq"lə qalib gələcək.

Bu arada, müxalif "Hraparak" qəzetinin redaktoru Armine Ohanyan müxalifətin uğursuzluğunun üç səbəbini göstərib: zəif namizədlər, kiçik partiyaların seçkiyə qoşularaq müxalifətin səsini parçalaması və xalqla təmasın olmaması. O, müxalifəti "ofislərini tərk etməyə", "intriqalara" son qoymağa, bölgələrdə xalqla real işə başlamağa çağırıb, onları seçicilərə məhəl qoymamaqda ittiham edib. Müxalifətdən söz düşmüşkən, həbsdə olan iş adamı Samvel Karapetyana məxsus "Taşir kapital" "Ermənistan elektrik şəbəkələri"nin elektrik enerjisinin paylanması lisenziyasından məhrum edilib. Bu barədə məlumatı Ermənistan mediası ölkənin İctimai Xidmətlərin Tənzimlənməsi Komissiyasına istinadən yayıb. Bildirilir ki, qərar komissiyada üç gün davam edən müzakirələrin nəticəsində verilib. Rusiya vətəndaşlığı olan Samvel Karapetyan "Bizim yolumuz" adlı müxalifət hərəkatı yaradıb.

Noyabrın 18-də isə İrəvan Korrupsiyaya Qarşı Mübarizə Məhkəməsi Karapetyanın müdafiəçilərinin "kilsənin donoru" adını qazanmış iş adamının azadlığa buraxılması ilə bağlı apelyasiyasını rədd edib. Məhkəmənin qərarına əsasən, Samvel Karapetyan daha iki ay həbsdə qalacaq. Belə görünür ki, Paşinyan hakimiyyəti həm seçkidə qalib gəlməklə, həm də Karapetyanın şirkətini əlindən almaqla Rusiyanın İrəvanda hakimiyyət dəyişikliyinə olan ümid "işığını söndürdü".

Bundan sonrakı gedişat nə vəd edir, terror, yoxsa?.. Qeyd etdiyimiz kimi, Paşinyanın Üçkilsə qələbəsi 2026-cı il parlament seçkilərinin anonsu hesab olunur. Amma hakim partiya "vint"ləri bərkitməklə daha rahat qələbə qazanmağı hədəfləyir. Belə olduğu halda, 1999-cu ilin oktyabr terroru təkrarlana, baş nazir aradan götürülə bilərmi?

**Deputat Sahib Alıyev "Yeni Müsavat"a açıqlamasında öncə bildirdi ki, katolikosun iqamətgahı yerləşən bir bölgədə seçkinin bu cür nəticələnməsi elə-belə baş vermədi:** "Həmçinin burada son iki ildə hakimiyyətin Paşinyanın sözlərini xatırlatmaqla desək, "kilsəni murdarlayan" Qaregin və çevrəsindəkilərin faktlarla ifşası təbii ki, öz rolunu oynadı. Amma hakimiyyətə müxtəlif səbəblərdən dolayı, eləcə də açıq dəstəklər də oldu. Dəstək verənlərdən biri ABŞ-nin bizim tarixdən yaxşı tanıdığımız keçmiş prezidenti Vudro Vilsonun nəticəsi Donald Uilyam Buşun dediyinə görə, onun ölkəsidir. "Armenian National Associations"ə rəhbərlik edən, haradasa ulu babasının yolu ilə gedən bu hay muzdlusu bildirir ki, ABŞ Paşinyan-Qaregin qarşıdurmasında birincini ona görə dəstəkləyir ki, hay kilsəsini Rusiyanın təsirindən azad etmək lazımdır. Avropa Birliyinin də yanaşması bu baxımdan ABŞ-ninkindən çox da fərqlənmir. Məhz ona görə bu quruma üzv dövlətlərin Ermənistandakı səfirləri Vaqaşapatdakı seçkiyə cəmisi 4-5 gün qalmış Paşinyanla görüşdülər ki, əslində bu, dəstək xarakteri daşıyırdı. Və hay toplumuna bu görüşlə belə bir ümid aşılanırdı ki, Ermənistanın Avropa Birliyinə üzvlüyü yaxın perspektivdə mümkün olmasa da, Paşinyan tezliklə onların Avropaya vizasız gediş-gəlişlərini təmin edə biləcək". S.Alıyev əlavə etdi ki, seçkiyə cəmisi bir gün qalmış həm onların, həm də ABŞ səfirinin Paşinyanın təşkil etdiyi dini ayinli səhər və şam yeməklərinə qatılmaları da yenə hay cəmiyyətinə göstərmək idi: yəni onlar Ermənistan baş nazirinin atdığı addımların kilsəyə deyil, Rusiyanın kilsədəki agentura şəbəkəsinə qarşı olduğunu görür və dəstəkləyirlər. Xatırladım ki, Donald Trampın oğlunun da Ermənistana gələrək bu ayinli səhər yeməyinə qatılacağı bildirilirdi. Amma Rusiyanın muzdlusu kimi tanınan məşhur jurnalist Taker Karlsonun şousu, onunla eyni mərkəzə xidmət edən vəkil Robert Amsterdamın Paşinyanı kilsə əleyhdarı kimi təqdim edən açıqlamaları buna mane oldu. Əlbəttə, əgər doğrudan da belə bir səfər planlaşdırılırdısa... Çünki elektoratının böyük bir hissəsi ölkəsindəki dindarlardan ibarət olan Trampa oğlunu kilsə əleyhdarı kimi təqdim edilən birinin dini mahiyyət daşısa da, elə həmin kilsəyə qarşı olduğu bildirilən tədbirinə qatılması əl verməzdi. Özü də yalan, ya doğru fərqi yoxdur, bu haqda informasiyanın hələ tozu qurumamış". **Deputat digər məqama da diqqət çəkdi**: "Baxın, elə buradan da Rusiyanın Ermənistandakı prosesləri necə həssaslıqla izlədiyini və onun marağına uyğun gəlməyən yöndə getməsini əngəlləmək üçün karlsonsayaq muzdlulardan faydalanmaq kimi incə metodlara da getdiyini görmək mümkündür. Amma mənə elə gəlir ki, Vaqarşapatdakı səsverməyə, eləcə də gözlənilən parlament seçkisinə də ən böyük təsiri 8 avqust Vaşinqton görüşü və Azərbaycanın keçirdiyi parad göstərdi və göstərəcək. Çünki Vaşinqton görüşü məhz Paşinyan hakimiyyətdə qalarsa, savaş təhlükəsinin aradan qalxacağı təəssüratı yaradırdısa, hərbi parad da göstərdi ki, Ermənistanın baş naziri Azərbaycanla sülhə üstünlük verməklə son dərəcə rasional davranır. Və o, əleyhdarlarının təqdim etdikləri kimi, Azərbaycanın təklif etdiyi sülh planı ilə ona görə razılaşmayıb ki, "türk agenti"dir, yaxud da ağılsız və iradəsiz biridir. Sadəcə, belə bir güc ortadaykən, üstəlik, havadar dövlətlər də yaranmış reallığı həzm etdikləri halda bu, ən rasional addımdır". İndən sonra proseslərin hansı yöndə gedəcəyinə, daha dəqiqi, Paşinyana qarşı terrorakt törədilib-törədilməyəcəyinə gəldikdə, S.Alıyevin fikrincə, Ermənistan baş nazirinə hər cür dəstək verənlər onu mühafizəsini də unutmurlar: "Üstəlik, indiki geosiyasi reallıq şəraitində və Ermənistandakı vəziyyət ortadaykən Paşinyan terrorla aradan götürülsə, onda bu, orada Rusiyanın mövqelərinin güclənməsindənsə, darmadağın olmasına aparıb çıxarar. Hətta indi elə bir vəziyyət yaranıb ki, Rusiyanın iqtisadi təzyiqləri də tutaq ki, Ermənistan hakimiyyəti üçün 5 il bundan önceki qədər təhlükəli deyil. Çünki onun təhlükəlilik dərəcəsini azaltmaq üçün çox dövlətlər hərəkətə keçəcəklər, fikrimcə, hətta Azərbaycan belə..."

❑ **E.PAŞASOY,**
**"Yeni Müsavat"**

## İstanbulda ermənilərlə görüş



**ATƏT Parlament Assambleyasının İstanbulda keçirilən 23-cü payız sessiyası çərçivəsində Azərbaycan və Ermənistan parlament nümayəndə heyətləri arasında ikitərəfli görüş keçirilib.**

Bu barədə "Teleqraf"a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən xəbər verilib.

Görüş Azərbaycan və Ermənistan parlament sədrləri arasında 2025-ci il oktyabrın 21-də Cenevrədə aparılmış müzakirələr çərçivəsində əldə olunmuş razılaşma əsasında baş tutub.

Görüşdə Vaşinqton sammitinin müsbət rolu qeyd edilib, əldə edilmiş razılaşmalar və Azərbaycanla Ermənistan arasında sülhün möhkəmləndirilməsi istiqamətində atılan növbəti addımlar, habelə hər iki ölkənin parlamentlərinin bu prosesə dəstəyinin əhəmiyyəti barədə fikir mübadiləsi aparılıb.

Söhbət zamanı iki ölkə arasında həyata keçirilən etimadın artırılması tədbirlərində parlamentlərin roluna toxunulub, həmçinin parlament üzvləri arasında beynəlxalq təşkilatlar çərçivəsində konstruktiv dialoqun vacibliyi vurğulanıb.

## "Cənubi Qafqazla bağlı Trampla dialoq aparırıq" - Hakan Fidan

**"ABŞ Prezidenti Donald Trampın seçilməsindən sonra Türkiyə və ABŞ arasındakı təmaslar daha da artıb".**

Bunu Türkiyə xarici işlər naziri Hakan Fidan deyib.

"Cənab prezidentimizlə prezident Tramp arasındakı yaxın dostluqdan da güc alaraq, münasibətlərimizi strateji baxış və müsbət gündəm ətrafında irəliyə aparırıq. Enerji daxil olmaqla, bütün sahələrdə əməkdaşlığın dərinləşdirilməsi və ticarət dövriyyəmizin illik 100 milyard dollar hədəfinə çatması üçün səbir və qətiyyətlə çalışırıq.

Həmçinin müdafiə sənayesi sahəsindəki bütün məhdudiyyətlər və sanksiyaların aradan qaldırılması istiqamətində təşəbbüslərimizi qətiyyətlə davam etdiririk. Cənab prezidentimizin sentyabrın 25-də baş tutan Vaşinqton səfəri zamanı bu məsələləri ABŞ tərəfi ilə ətraflı şəkildə müzakirə etdik. ABŞ administrasiyasının da eyni iradəyə sahib olduğunu və strateji tərəfdaşlığımızı iki köklü müttəfiqə yaraşan şəkildə bütün sahələrdə irəli aparmağa hazır olduğunu məmnuniyyətlə gördük.

Tramp administrasiyası ilə Qəzzadan Suriyaya, Ukraynadan Cənubi Qafqaza uzanan geniş bir coğrafiyada dialoq aparırıq", - o bildirib.

YENİ MÜSAVAT
N 209 (8819) 19 noyabr 2025




# "Rus bölməsi" mövzusu yenə gündəmdə

## Murad Arifin açıqlaması illərdir davam edən ictimai müzakirələri yenidən aktuallaşdırıb - ekspertlərin mövqeyi...

**Azərbaycan məktəblərində rus sektoru ilə bağlı illərdir davam edən ictimai müzakirələr yenidən aktuallaşıb. Bu dəfə mövzunu gündəmə gətirən tanınmış müğənni və aparıcı Murad Arifdir. O, Elm və Təhsil Nazirliyinə müraciət edərək rus dili bölməsində oxuyan şagirdlərin üzləşdiyi çətinlikləri qabardıb və sektorla bağlı kəskin təklif səsləndirib. Murad Arif bildirib ki, ibtidai siniflərdə rus bölməsinin saxlanmasına ehtiyac yoxdur və ölkədə 4-cü sinfə qədər bütün şagirdlər Azərbaycan dilini mükəmməl öyrənməlidir. Onun sözlərinə görə, əgər nazirlik doğrudan da dövlət dilinin tədrisini gücləndirmək istəyirsə, rus bölməsində Azərbaycan dili fənni ən azı həftədə 4 dəfə keçirilməlidir.**

Müğənni vurğulayıb ki, rus sektorunda Azərbaycan tarixinin Azərbaycan dilində tədrisi yalnız bir nəticəyə gətirəcək - həmin şagirdlər ölkənin tarixini dərindən bilməyəcəklər. Bu fikirlər sosial medianın bütün seqmentlərində geniş müzakirələrə səbəb olub və cəmiyyətin mövzuda kəskin şəkildə iki yerə bölündüyü müşahidə edilir.

Məsələ ilə bağlı fikir bildirənlərdən bir qismi rus sektorunun illərdir təhsil sistemində qeyri-bərabər situasiya yaratdığını, dövlət dilinin tədrisini arxa plana keçirdiyini yazır. Onların fikrincə, rus sektorunun mövcudluğu milli identiklik baxımından da risklidir və bu sistemi "təhsil deyil, daha çox status göstəricisi" kimi qəbul edən valideynlərin sayı artır. Digər qrup isə əks arqument irəli sürərək bildirir ki, rus bölməsi keyfiyyətli təhsil axtaran valideynlər üçün real alternativdir və bu sektorun bağlanması yeni narazılıqlara, təhsil sistemində xaosa səbəb ola bilər. Həmin istifadəçilərin fikrincə, rus dilinin üstün mövqeyi təkcə mədəni təsirlərlə yox, həm də regiondakı praktiki əlaqələrlə bağlıdır.

Ekspertlərin yanaşması isə daha genişdir. Onlar qeyd edirlər ki, problem təkcə rus sektorunun qalıb-qalmaması ilə məhdudlaşmır. Təhsil sistemində dövlət dilinin zəif öyrədilməsi bütün sektorları əhatə edən struktur problemdir və boşluqları yalnız rus bölməsi ilə əlaqələndirmək düzgün yanaşma deyil. Mütəxəssislər bildirirlər ki, valideynlərin rus bölməsinə üz tutmasının səbəbi bəzən rus dili yox, Azərbaycan bölməsindəki tədris keyfiyyətinə inamsızlıqla bağlıdır. Bu səbəbdən də, istənilən qərarın emosiyalarla deyil, geniş araşdırma və konseptual yanaşma əsasında verilməsi vacibdir.

Murad Arifin açıqlamasından sonra yaranan ajiotaj sosial şəbəkələrin gündəmində hələ də əsas mövzulardan biridir. Müzakirələrin emosional tonu göstərir ki, məsələ yalnız dil və təhsil müstəvisində deyil, həm də cəmiyyətin tarix, identiklik və gələcək nəsillərin kimlik formalaşdırılması mövzusundakı həssaslığının bariz nümunəsidir.

Yaşananlar bir daha nümayiş etdirir ki, "rus sektoru" məsələsi hələ uzun müddət gündəmdən düşməyəcək.

**Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan Xalq şairi Sabir Rüstəmxanlı bildirib ki, rus dilində oxuyan şagirdlərin Azərbaycan dilini mükəmməl bilməsi vacibdir:** "Rus sektorunda Azərbaycan dili fənninin dərs saatı artırılmalıdır. Bu, çox gözəl təklifdir. Rus sektorunda Azərbaycan tarixi əlbəttə ki, öz dilimizdə keçilməlidir.

Əslində Azərbaycanda bu qədər rusdilli məktəbin olmasına ehtiyac yoxdur. Lakin nəzərə alaq ki, ölkəmizdə yaşayan rus vətəndaşlar var. Onlara rus dilində təhsil almaları üçün mane ola bilmərik. Amma azərbaycanlıların öz ana dilində yox, rus dilində təhsil almaları anormal bir haldır. Şagird ilk ibtidai təhsilini ana dilində almalıdır, ondan sonra isə təhsilini hansı dildə istəyirsə, ala bilər. Biz şagirdlərin rus dilini öyrənməsinə qarşı deyilik, amma məktəbin ana dilində olması və təhsilin səviyyəsinin yüksəldilməsi vacibdir. Valideynlər bildirir ki, rus sektorunda oxuyan övladları Azərbaycan dilində yaxşı danışır. Mən sual edirəm: əgər övladınız Azərbaycan dilində yaxşı bilirsə, onu başa düşürsə, niyə Azərbaycan tarixinin öz dilimizdə tədrisi sizi narahat edir? Məişətdə azərbaycanca danışmaq hələ dili bilmək demək deyil. Adi danışıqla təhsil dilini qarışdırmaq olmaz. Belə fikirlər valideynlərin özlərini aldatmasından başqa bir şey deyil. Uşaq ana dilində oxumalı, öz dilini mükəmməl bilməlidir. Öz tarixini öz dilində oxuya bilməyən şagirdin Azərbaycan dili bilgisi məişətdən kənara çıxmayacaq. Azərbaycan dilində oxuduğu tarixlə, ədəbiyyatla gələn ruh onun içinə dolmalıdır. Ona qalsa, ruslar da Azərbaycan dilində danışa bilər, lakin onlar Azərbaycanı hiss etməzlər. Rus dilinin, Rusiyanın hansı şan-şöhrəti qalıb ki, valideynlər rus sektoruna qaçır. Rus ədəbiyyatını Azərbaycan dilində də oxumaq mümkündür, tərcümələr edilib. Dünyaya çıxış üçün rus dilinin imkanları azalır. İngilis, Çin, alman dili var. Bu dilləri öyrənmək lazımdır. Rus dili isə sovet dövründən qalma bir psixologiyadır. Rus dilini kim öyrənmək istəyirsə, öyrənsin, lakin təhsil ana dilində olmalıdır".

**Bakı Dövlət Universitetinin professoru, AZLEKS elektron lüğətlər toplusunun baş redaktoru Qulu Məhərrəmli mövzu ilə bağlı fikirlərini bölüşüb:** "Rus sektorunda oxuyan şagird və tələbələr Azərbaycan dilini gözəl bilməlidirlər. Çünki yaşadıqları ölkənin dövlət dili Azərbaycan dilidir. Onlar bu dili bilməyə borcludurlar. Orta məktəblərdə Azərbaycan dilini daha yaxşı keçmək, daha əhatəli proqram təqdim etmək və şagirdləri daha yaxşı öyrətmək lazımdır. Rus sektorunda Azərbaycan dilinin tədrisinə xüsusi önəm verilməlidir. İbtidai siniflərdən Azərbaycan dili üzrə dərs saatlarının sayı çox olmalıdır. Elm və Təhsil Nazirliyi bu barədə ciddi düşünməlidir".

**Professorun fikrincə, rusdilli məktəblərin ölkəmizdə sayının çox olması da, onlarının tamamilə bağlanması da yolverilməzdir:** "Onları bağlamaq məqsədəuyğun deyil. Çünki biz hələlik uzun müddət rus mədəni mühitində mövcuduq, hesab edirəm ki, bundan sonra da müəyyən illər ərzində o mühit olacaq. Söhbət rus dilinin işləkliyindən gedir. Hazırda internet resurslarının təxminən 5-7 faizi rus dilindədir. Yerdə qalan faizlər isə digər dillərdədir. Ona görə də rus dilinin tədrisi Azərbaycan dilinin statusunun azaldılması hesabına olmamalıdır.

Rus sektorunu tamamilə bağlamaq məqsədəuyğun deyil, lakin rusdilli məktəblərin sayı da bu qədər olmamalıdır".

❑ **Şahanə RƏHİMLİ, "Yeni Müsavat"**

# "Efirdəki proqram övladlarının tərbiyəsini pozursa, baxmasınlar" - nazir müşaviri




**"Təxminən üç ildir ki, Mədəniyyət Nazirliyinə yeni rəhbərlik gəlib. Əlbəttə ki, tədricən heyətdə də dəyişikliklər baş verir".**

"Qafqazinfo" xəbər verir ki, bunu son günlər müzakirəyə səbəb olan məsələlərlə bağlı jurnalistlərə açıqlamasında mədəniyyət nazirinin müşaviri Cahangir Səlimxanov deyib.

"Biz hər zaman Mədəniyyət Nazirliyi olaraq, bir tərəfdən irsə, digər tərəfdən isə eksperimentə, yeniliyə yol açmaq məsələsi ilə bağlı müzakirələr aparırıq", - C.Səlimxanov bildirib.

Nazir müşavirinin sözlərinə görə, mədəniyyət xadimləri nazirliyə köhnə yanaşma ilə baxırlar: "Həmin şəxslər elə bilirlər ki, nazir yalnız əvvəlki dövrlərin funksiyalarını icra etməlidir. Adi bir vətəndaş sosial şəbəkədə "Mədəniyyət naziri hara baxır? Niyə telekanallarda bayağı musiqi geniş yayılır?" yazsa, bu, başadüşülləndir. Amma bunu bir mədəniyyət xadimi soruşanda artıq qəbulolunan deyil".

Səlimxanov qeyd edib ki, Mədəniyyət Nazirliyinin konkret səlahiyyət çərçivəsi var və bəzi tənzimləmələr digər müvafiq qurumlar tərəfindən həyata keçirilir: "Müxtəlif media platformalarının mövcud olduğu şəraitdə bütün problemləri yalnız nazirliyin üzərinə qoymaq doğru yanaşma deyil. Hər kəs əvvəlcə öz fəaliyyətinə məsuliyyətlə yanaşmalı və dəyişikliklərə özündən başlamalıdır. Məsələn, efirdə gedən proqram xoşlarına gəlmirsə, övladlarının tərbiyəsini pozursa, baxmasınlar".

Yeni MÜSAVAT
N 209 (8819) 19 noyabr 2025

# Azərbaycan istehsal etdiyi avtomobilləri niyə sata bilmir?

## Ötən ilin müvafiq dövrü ilə müqayisədə minik avtomobili istehsalı 26, yük avtomobili istehsalı isə 31.6 faiz azalıb

**2025-ci ilin yanvar-oktyabr aylarında Azərbaycanda 3280 ədəd minik avtomobili, 273 ədəd yük avtomobili istehsal edilib. "Yeni Müsavat" Dövlət Statistika Komitəsinin aylıq hesabatına istinadən xəbər verir ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə minik avtomobili istehsalı 26 faiz, yük avtomobili istehsalı isə 31.6 faiz azalıb. Cari ilin noyabr ayının 1-i vəziyyətinə hazır məhsul ehtiyatı müvafiq olaraq 168 ədəd minik, 24 ədəd isə yük avtomobili təşkil edib.**

Hesabat dövründə ölkədə 427 ədəd traktor istehsal edilib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 13.7 faiz azdır. Xatırladaq ki, ötən il ölkədə 5998 ədəd minik avtomobili, 697 ədəd isə yük avtomobili istehsal edilib, minik avtomobili istehsalında illik 55 faizlik artım olub.

Qeyd edək ki, Azərbaycanda son 20 ildə dəfələrlə avtomobil istehsalının inkişafı istiqamətində layihələr başladılıb, lakin uğurlu bir iş ortaya qoyulmayıb. Xüsusilə iki dəfə İranın, bir dəfə Çinin şirkətləri ilə hazır komponentlərdən burada avtomobil yığımı ilə bağlı işlər başladılıb. İlk addım olaraq İran Khodro ilə razılaşmalar çərçivəsində "AzSamand" avtomobillərinin yığımına başlandı, lakin tezliklə uğursuzluğa düçar olundu. Daha sonra Naxçıvanda Çin şirkəti ilə "Lifan", "FAW", "Changan" modellərinin yığımı təmin edildi. Qısa müddət ərzində dövlət qurumlarından müəyyən sifarişlər olsa da, tezliklə onlar da dayandı, müəssisədə avtomobil yığımı səmərəsiz hala gəldi.

**"Azərbaycan Maşın və Avadanlıq İstehsalçıları Assosiasiyası"nın (AMAİA) icraçı direktoru Gülay Həsənova**nın mətbuata verdiyi məlumata görə, Azərbaycanda avtomobillərin əsas istehsal mərkəzləri Hacıqabul Sənaye Parkı və Neftçala Sənaye Məhəlləsində yerləşir. Ötən il Hacıqabulda dəyəri 107,5 milyon manata bərabər olan 3.761 ədəd avtomobil, Neftçalada dəyəri 54,65 milyon manat 2.182 nəqliyyat vasitəsi istehsal edilib. Ümumilikdə isə 2018-2024-cü illərdə sənaye zonalarında 442,5 milyon manatlıq avtomobil istehsalı gerçəkləşdirilib.

Açıqlanan məlumatlara əsasən, Hacıqabul Sənaye Parkında indiyədək "ISUZU" markalı yük avtomobilləri və avtobuslarının, eləcə də "Chevrolet" markalı minik avtomobillərinin istehsalı davam etdirilir. 2025-ci ilin əvvəlinə kimi 7.954 ədəd "Chevrolet" minik avtomobili istehsal edilib, "ISUZU" markalı maşınların sayı isə 716 ədəddir.

2023-cü ildən Azərbaycanda "Lada"nın istehsalına başlanıldığı açıqlanıb. Məlum olub ki, Rusiyanın "AvtoVAZ" ASC Azərbaycanda "Lada" avtomobillərinin yığılması layihəsinə başlayıb və 2024-cü ildə 1,5 min avtomobil yığmağı planlaşdırır. Bu ilin oktyabrında Çexiya mətbuatı ölkəyə AvtoVaz-ın "Azərmaş"la birlikdə istehsal etdiyi "Niva"ların idxal olunacağına dair məlumat yayıb. Lakin Azərbaycandan bu məlumatı təsdiq edən açıqlama verilməyib.



2023-cü ildə Hacıqabul Sənaye Parkında Azərbaycan-Özbəkistan birgə avtomobil zavodunun təməli qoyulub, onun 2025-ci ilin mayında işə salınacağı gözlənilirdi. Zavodun investisiya dəyərinin 88 milyon manat təşkil edəcəyi bildirilirdi. Onun istehsal gücünün ildə 30 min avtomobil olacağı,ABŞ, İtaliya, Çin, Koreya və Özbəkistan kimi ölkələrin texnologiyalarından istifadə ediləcəyi deyilir. Müəssisədə "Chevrolet", "Cobalt", "Malibu", "Tracker" və "Equinox" kimi markalı avtomobillərin istehsal olunacağı gözlənilir. Lakin hələlik bu müəssisənin də fəaliyyətə başlamasına dair heç bir məlumat yoxdur.

Minik avtomobillərindən fərqli olaraq, avtobus istehsalında müsbət dinamika diqqəti cəlb edir. Belə ki, 2024-cü ildən Azərbaycanda həm də elektrikli avtobusların yığımı ilə bağlı layihənin icrasına başlanılıb. İyul ayında Çinin "BYD Company Limited" (BYD) şirkəti ilə Azərbaycan arasında Çərçivə sazişi imzalanıb. Çərçivə sazişi elektrik mühərrikli avtobusların alınmasını, onlara xidmətin göstərilməsini, ölkəmizdə istehsalın qurulmasını və lokallaşdırılmasını nəzərdə tutur. Sənəd eyni zamanda Sumqayıt Kimya Sənaye Parkında 2025-ci ildə elektrik mühərrikli avtobusların istehsalı zavodunun tikilməsini nəzərdə tuturdu. İnvestisiya həcmi 34 milyon dollar olan layihə çərçivəsində ehtiyat hissələrinin mərhələli şəkildə lokallaşdırılması planlaşdırılır. Layihədə "Azərbaycan İnvestisiya Şirkəti" ASC payçı kimi iştirak edir. Layihə üzrə BYD şirkətinin Azərbaycandan olan tərəfdaşı "SARDA Group" şirkətinə məxsus "Electrify Azerbaijan"dır.

Zavodda daxili tələbat və ixrac imkanları nəzərə alınmaqla illik istehsal gücünün 300 ədəd olması gözlənilir. Burada may ayında yığılmağa başlayan ilk elektrobus sentyabrda istismara qəbul edilib. Avtobus BakıBus MMC-yə təhvil verilib. Bildirilib ki, ilk istehsal olunan 12 metrlik avtobus 82 sərnişin tutumuna malikdir və bir dəfə şarjla 350 km məsafə qət edə bilir.

Açıqlanan məlumata görə, BYD şirkəti ölkəmizdə əlavə dəyər zəncirinin inkişaf etdirilməsi məqsədilə yeni istehsal sahələrinə də investisiya qoymağı nəzərdə tutur. Şirkət gələcəkdə elektriklə işləyən yüngül yük maşınlarının, kommunal xidmətlər üçün elektrik maşınlarının və elektrikli minik avtomobillərinin istehsalı üzrə əməkdaşlıq etməyi hədəfləyir.

Ümumilikdə, Azərbaycanda 2026-cı ildən etibarən illik 200-250 elektrik mühərrikli avtobusun istehsalı planlaşdırılır. Bu, Prezident İlham Əliyevin sərəncamı təsdiq olunmuş Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Dövlət Proqramında qeyd olunub.

Sənəddə bildirilir ki, ictimai nəqliyyatda xidmət keyfiyyətinin yüksəldilməsi və sərnişin təhlükəsizliyinin təmin edilməsi məqsədilə avtobus parkının modernləşdirilməsi əsas prioritetlərdən biri olaraq qalır.

Bu baxımdan, BYD ilə qurulan müəssisənin uğur qazanması imkanları minik avtomobilləri ilə müqayisədə daha yüksəkdir. Çünki təkcə Bakı şəhərində elektrikli avtobuslara tələbat min ədəddən yuxarıdır. 2024-cü ildə rəsmilər bildiriblər ki, Bakıda ümumi avtobus sayı 2000 ədəddir, halbuki sərnişindaşımanı normal təmin etmək üçün 2600 avtobus olmalıdır. Mövcud avtobus parkının 50 faizindən çoxu köhnə, əsasən dizel və qismən benzinlə işləyən avtobuslardan ibarətdir. Onların da yeni və elektrikli avtobuslarla əvəzlənməsi nəzərdə tutulur.

Bakıdan əlavə, ölkənin digər şəhərlərində, rayonlarında da avtobus parkının 90 faizindən çoxunun yaşı 15 ildən yuxarıdır. Bu, on minlərlə avtobus deməkdir. Belə vəziyyətdə Sumqayıtdakı müəssisənin ən azı yaxın on ildə istehsal üçün zəruri sifarişlər baxımından korluq çəkməyəcəyi aydın görünür. Əsas məsələ layihənin icrasının bundan sonrakı mərhələsidir: detalların istehsalında 40 faizlik lokallaşma. Bu hədəfə nail olunarsa, üstəlik, istehsal edilən avtobusların keyfiyyət parametrləri qaneedici olarsa, xaricə ixrac imkanları da yarana bilər.

Beləliklə, təcrübə göstərir ki, Azərbaycanda minik avtomobillərinin istehsalı sahəsində uğurlu iş ortaya qoymaq indiyədək mümkün olmayıb. Halbuki ölkədə minik avtomobillərinə tələbat kifayət qədər yüksəkdir. Bunu idxal dinamikasından aydın görmək olar: Dövlət Gömrük Komitəsinin statistikasına əsasən, 2025-ci ilin yanvar-oktyabr ayları ərzində Azərbaycana ümumilikdə 1 milyard 793 milyon 87.9 min ABŞ dolları dəyərində 94 583 ədəd avtomobil idxal olunub. 2024-cü ilin yanvar-oktyabr ayları ilə müqayisədə ölkəyə idxal olunan avtomobillərin sayı 26.6 faiz və ya 19 860 ədəd, dəyəri isə 20.8 faiz və ya 308.7 milyon dollar artıb. 2024-cü ilin müvafiq dövründə Azərbaycana 1 milyard 484 milyon 416.8 min ABŞ dolları dəyərində 74 723 ədəd avtomobil idxal edilmişdi.

Bu ilin 10 ayında Azərbaycana ən çox hibrid avtomobillər idxal olunub: 991 milyon 489 min dollar dəyərində 51 min 133 ədəd. Bu isə məhz belə avtomobillərə tələbatın yüksək olduğunu göstərir.

Azərbaycanda avtomobil istehsalına başlamaq istəyən sahibkarların bu amili nəzərə alması mütləqdir. Çünki indiyədək ölkədə yığılan avtomobillərin hamısı daxili yanma mühərrikinə əsaslanan avtomobillərdir. Onların keyfiyyət göstəriciləri Avropadan, Asiyadan idxal olunan işlənmiş avtomobillərdən belə aşağı olduğuna görə bazar tapa bilməyiblər. Bir neçə dövlət qurumuna məcburən bir neçə min avtomobil aldırmaqla rentabelli istehsalı təmin etmək mümkün deyil. Keyfiyyətli məhsul istehsal edilməyəcəksə, vətəndaşın onu kütləvi şəkildə alacağını gözləməyə dəyməz. Eyni qayda elektrikli avtobuslarla bağlı da keçərlidir: BakıBus-dan kənarda özəl daşıyıcılar yerli avtobusları o halda əldə edəcəklər ki, keyfiyyət parametrləri tələblərə cavab versin.

Hələlik hökumət yerli və keyfiyyətli avtomobil istehsalını təmin etmədən elketrikli avtomobillərə tətbiq olunan güzəştləri aradan qaldırır. **İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Vergi siyasəti baş idarəsinin rəisi Nicat İmanov** isə Milli Məclisdə bildirib ki, Azərbaycanda minik avtomobillərinin istehsalının stimullaşdırılması üçün vergi təşviqləri genişləndirilir. Onun sözlərinə görə, ölkədə avtomobil istehsalında müsbət dinamika var: "Bu da ölkəyə əlavə investisiyanın qoyulması üçün vergi təşviqlərinin genişləndirilməsini zəruri edir. Bu baxımdan, boya və qaynaq şərti ilə vergi güzəştləri verilməsi ölkədə əlavə dəyərin artırılmasına istiqamətlənib. Elektrikli avtomobillərin idxalı və satışının ƏDV-dən azad edilməsi avtobuslara nəzərən tətbiq ediləcək, minik avtomobillərinə münasibətdə isə vergi güzəştləri aradan qaldırılır. Əvəzində yerli avtomobillərin, o cümlədən elektrikli və hibrid avtomobillərin istehsalı ƏDV-dən azad edilir".

Bu açıqlamadan aydın olur ki, ölkədə hibrid minik avtomobili istehsalına dair planlar var. Lakin bu planlar hələ ki ictimaiyyətə açıqlanmayıb. Daxili istehsal təmin olunmadan xaricdən idxalda güzəştin aradan qaldırılması bazarda potensial yerli istehsalçı üçün əlverişli şərtlər təmin etmək cəhdidir. Bu gedişlə, yerli istehsal başlandıqdan sonra idxala əlavə rüsumların tətbiqi də real görünür...

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 209 (8819) 19 noyabr 2024

# İki azərbaycanlı avtoritet müxalifətçini niyə öldürmək istəyib?

## Manhetten federal məhkəməsi Rafət Əmirov və Polad Ömərovun hər birinin 55 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib

**Manhetten federal məhkəməsində kriminal avtoritetlər Rafət Əmirov və Polad Ömərova 25 il həbs cəzası kəsilib.**

"Teleqraf"a istinadən xəbər verir ki, mart ayında onlar İran əsilli amerikalı jurnalist və hüquq müdafiəçisi Məsi Əlinejadın həyatına qurulan sui-qəsddə günahkar biliniblər.

Nyu-York Cənub Dairəsinin federal prokurorluğu 46 yaşlı Rafət Əmirov və 41 yaşlı Polad Ömərovu məşhur "qanuni oğru", 2020-ci ildə Antalyada mühafizəçisi tərəfindən öldürülmüş Nadir Səlifovun ("Lotu Quli") rəhbərliyi altında fəaliyyət göstərən "rus mafiyası"nın üzvləri kimi təsvir edib.

İttiham aktına görə, 2022-ci ilin iyul ayının sonu üçün planlaşdırılan, lakin icraçı Xalid Mehdiyevin səriştəsizliyi səbəbindən baş tutmayan Əlinejada qarşı sui-qəsd İranın İslam İnqilabı Keşikçiləri Korpusu (SEPAH) tərəfindən sifariş edilib və jurnalistin qətlə yetirilməsi üçün yarım milyon dollar ayrılıb.

Prokurorların sözlərinə görə, Gürcüstan vətəndaşı Polad Ömərov, həm Rusiya, həm də Azərbaycan vətəndaşlığı olan Rafət Əmirov bu sifarişə qismən pul xətrinə, eyni zamanda "Quli"nin ölümündən sonra qruplaşma daxilində onun varisliyi uğrunda gedən çəkişmədə üstünlük qazanmaq ümidi ilə girişiblər.

Rafət Əmirov vaxtilə məhz Nadir Səlifovun özü tərəfindən "qanuni oğru" kimi taclandırılıb. Polad Ömərov isə Nadir Səlifovun yaxın qohumudur. O da "Quli" tərəfindən taclandırıldığını iddia etsə də, qruplaşmanın digər üzvləri bunu təkzib edib. Eyni zamanda Manhetten prokurorluğu da onu "qanuni oğru" kimi tanımır.

2023-cü ildə Çexiyada saxlanılan və bir il sonra ABŞ-yə ekstradisiya olunan Rafət Əmirov istintaqla əməkdaşlıqdan imtina edib.

Məlumata görə, Özbəkistandan təhvil verilən Polad Ömərov isə üzərinə qoyulan ittihamları müzakirə etməkdən boyun qaçırıb. Amma prokurorların dediyinə görə, ABŞ-dən kənarda keçdiyi kriminal karyera barədə sorğu-sual zamanı fəxrlə danışıb.

Xalid Mehdiyev ("Əhmədli



Polad Omarov | Rafat Amirov | Khalid Mehdiyev

Xalid") hazırda 27 yaşındadır. Həbsindən sonra əvvəlcə danışmaqdan imtina edib. Daha sonra fikrini dəyişib, istintaqla əməkdaşlığı qəbul edib və mart ayında hakim Kolleen MakMahonun sədrliyi ilə keçirilən məhkəmə prosesində üç dəfə ifadə verib.

Xatırladaq ki, hakim MakMahon sabiq ABŞ Prezidenti Bill Klinton tərəfindən təyin olunub.

Prokurorluq Rafət Əmirov və Polad Ömərovun hər birinin 55 il müddətinə azadlıqdan məhrum edilməsini təklif etmişdi. Hakim hər iki təqsirləndirilən şəxsi 25 il azadlıqdan məhrum edib.

Əgər onlar həbsxanada nizam-intizamlı olsalar, təxminən 20 il cəza çəkəcəklər. ABŞ federal sistemində 1985-ci ildən bəri şərti azadlıq yoxdur. Amma məhbusların cəzası yaxşı davranışa görə adətən 15% azaldılır.

### "Çalışdım ki, gələcəkdə "qanuni oğru" olmağa layiq görülüm"

Rafət Əmirov son illər İranda yaşayıb. Polad Ömərovla o, əlaqə saxlayıb, Ömərov isə jurnalist Əlinejadın öldürülməsi tapşırığını Yonkersdə yaşayan, "U Peppino" adlı pitsa restoranında menecer işləyən Xalid Mehdiyevə verib.

Polad Ömərovun vəkili Elena Fest X.Mehdiyevə çarpaz sorğu-sual keçirib. Məlum olub ki, məsələn, Mehdiyev ABŞ-də ola-ola internet və vasitəsilə Ukraynada törədilən bir oğurluq əməliyyatını idarə edib.

"Demək, siz həm beynəlxalq oğurluğu koordinasiya edir, həm də pitsa restoranında işləyirdiniz?" - deyə Fest soruşub.

Xalid Mehdiyev hər iki işi eyni vaxtda görməyin məsuliyyət tələb etdiyini etiraf edib: "Qruplaşma rəhbərlərində yaxşı təəssürat yaratmağa çalışdım ki, gələcəkdə "qanuni oğru" olmağa layiq görülüm".

### "Quli"nin ölümündən sonra nə baş verdi?

Nadir Səlifovun ("Quli") ölümündən sonra Xalid Mehdiyev "reket"lik etməyə davam edib. Əvvəlcə "Quli"nin qardaşı Namiq Səlifovun ("Namik Bakinski") adından istifadə edirmiş, daha sonra ondan ayrılıb. Polad Ömərovla birgə xaricdən Wotsapp vasitəsilə verdiyi tapşırıqlarla işləməyə başlayıb.

Məsələn, Bruklində bir ərzaq mağazasının sahibini "nəzarət"ə götürüblər. Xalid Mehdiyev onun "Range Rover" markalı avtomobilini yandırıb, sonra mağazanın dayanacağında maşını güllələbaran edib.

# Ali Məhkəmə Bəxtiyar Hacıyevlə bağlı qərar verdi



**İctimai fəal Bəxtiyar Hacıyevin işi üzrə kasasiya şikayətinə baxılıb.**

"Teleqraf" xəbər verir ki, Ali Məhkəmədə hakim Ələsgər Novruzovun sədrliyi ilə keçirilən prosesdə qərar elan olunub. Qərara görə, şikayət təmin olunmayıb.

Xatırladaq ki, Bəxtiyar Hacıyev Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 10 il müddətə azadlıqdan məhrum edilib. Bakı Apelyasiya Məhkəməsinin qərarı ilə Bəxtiyar Hacıyevin apelyasiya şikayət təmin olunmayıb.

Qeyd edək ki, Bəxtiyar Hacıyev 2022-ci ilin dekabrında həbs olunub. O zaman ona qarşı Cinayət Məcəlləsinin 221.2.2 (ictimai qaydanın qorunması üzrə vəzifəni yerinə yetirən şəxsə qarşı müqavimət göstərməklə xuliqanlıq) və 289.1 (məhkəməyə hörmətsizlik) maddələrilə ittiham irəli sürülmüşdü.

Onunla bloger Ülviyyə Alovlu arasında Yasamal Rayon Məhkəməsində insident baş verdiyi iddia olunur. İttihama görə, Bəxtiyar Hacıyev həmin insident zamanı icra məmuru Orxan Abdullayevə də güc tətbiq edib.

İyunun 16-da Bəxtiyar Hacıyevə qarşı yeni ittihamlar irəli sürülüb. Bu ittihamlar əsasən maliyyə məsələləri ilə - ayrılan qrantların təyinatı üzrə xərclənməməsi ilə bağlıdır. Ona həmçinin Cinayət Məcəlləsinin 192 (qanunsuz sahibkarlıq), 193-1 (cinayət yoluyla əldə edilmiş əmlakı leqallaşdırma), 206 (qaçaqmalçılıq), 320-ci (saxta sənədlərdən istifadə) maddələrilə ittiham verilib.Noyabrda isə ona daha bir ittiham verilib. Ona qarşı Cinayət Məcəlləsinin 213.1 (vergidən yayınma) maddəsi ilə daha bir ittiham irəli sürülüb.

Bəxtiyar Hacıyev bu ittihamların heç birini qəbul etmir.

Bəxtiyar Hacıyevin işi üzrə zərərçəkmiş qismində iki nəfər - bloger Ülviyyə Muradova (Alovlu) və Orxan Abdullayev tanınıb.

Onlar Yasamal Rayon Məhkəməsində baş vermiş insidentlə bağlı zərərçəkmiş qismində tanınıblar.



# Şəkidə şok olay

**Rusiya işləmək üçün yollanan Şəki sakini Cabir Quliyev 9 ay sonra geri qayıtdıqdan sonra arvadı Zəminə Quliyevanı (ad-soyadlar şərtidir) döyərək ona xəsarətlər yetirib.**

"Teleqraf"ın əldə etdiyi məlumata görə, buna səbəb Zəminənin Cabirə xəyanət etməsi olub. Rayon prokurorluğundan gələn zəng xəyanətin üstünü açıb.

Cabir zəng nəticəsində arvadının 3 aylıq hamilə olduğunu öyrənib. Prokurluqdan arvadının qanaxma ilə Şəki Rayon Mərkəzi Xəstəxanasına gətirildiyi, uşağın isə tələf olduğunu deyiblər.

Bundan sonra Cabir həyat yoldaşının ona xəyanət etdiyini başa düşüb və onunla boşanmaq qərarına gəlib.

Cütlük boşanma ilə bağlı Şəki 1 saylı Mediasiya Təşkilatına dəvət olunublar. Orada Cabir boşanmağı xəyanətlə əlaqələndirib, arvadı isə bunu inkar etməyib. O, Rəsul adlı şəxslə münasibətdə olduğunu, buna görə hamilə qaldığını etiraf edib.

Bu etirafdan sonra əsəbiləşən Cabir Zəminənin üzərinə hücum çəkib və ona yumruq zərbələri endirib. Qadın döyülməsi ilə bağlı polisə şikayət edib.

Şəki Rayon Məhkəməsinin hökmünə əsasən, Cabir Quliyev 9 ay müddətinə azadlıqdan məhrum edilib.

# Məktəbli oğluna maşın verən ataya həbs




**Naxçıvan Muxtar Respublikasında yetkinlik yaşına çatmamış övladına avtomobil sürməyə icazə verən və digər xuliqanlıq hərəkətləri etmiş şəxs məsuliyyətə cəlb olunub.**

"Qafqazinfo" xəbər verir ki, hadisə bir neçə gün əvvəl Şərur rayonunun Yengicə kəndində qeydə alınıb.

Belə ki, polis əməkdaşları kənd məktəbinin qarşısında xidmətdə olarkən 2009-cu il təvəllüdlü yeniyetmənin "Vaz 2107" markalı avtomobil sürdüyünü müşahidə ediblər. Onlar sürücülük hüququ olmayan məktəblini saxlayıblar. Bu zaman yeniyetmə atasına zəng edərək maşının saxlanması barədə məlumat verib.

Bundan bir neçə dəqiqə sonra 16 yaşlı oğlanın atası hadisə yerinə gəlib və oğlunun sürdüyü maşının saxlanmasına sərt etiraz edib, həmçinin digər xuliqanlıq hərəkətləri törədib.

Polis əməkdaşları 39 yaşlı şəxsi saxlayaraq şöbəyə dəvət ediblər və onun barəsində İnzibati Xətalar Məcəlləsinə əsasən protokol tərtib edilib.

Şərur Rayon Məhkəməsinin qərarı ilə vətəndaşa 6 sutkalıq inzibati həbs verilib.



# Şoyquya sui-qəsd cəhdinin pərdəarxası

**"Rusiya Təhlükəsizlik Şurasının katibi Sergey Şoyquya sui-qəsd planının məqsədi bizə təzyiq göstərmək və cəmiyyətdə çaxnaşma yaratmaqdır".**

Bunu Dövlət Dumasının Müdafiə Komitəsinin üzvü Andrey Kolesnik deyib.

"Sergey Şoyqu nüfuzlu fiqurdur. Terrorçuların məqsədi bəllidir, bu cür hərəkətlər onlara xasdır", - o bildirib. Deputat həmçinin Qərb ölkələrini də hədəf alıb: "Onlar Kiyevi silah-sursat və partlayıcı maddələrlə təmin edir, bununla da Ukrayna kəşfiyyat orqanlarına terror əməliyyatlarının keçirilməsində köməklik göstərirlər". Qeyd edək ki, noyabrın 14-də FSB yüksək rütbəli bir rus məmuruna qarşı sui-qəsdin qarşısını aldığını elan etsə də, onun adını açıqlamayıb.

İddialara görə, Ukrayna kəşfiyyat orqanının hədəfi Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqu olub.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

YENİ MÜSAVAT
N 209 (8819) 19 noyabr 2025

# Böyük Qayıdış

## İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"

**Sabah ölkəmizdə Ağdam şəhəri günü kimi qeyd olunur. 2020-ci il noyabrın 10-da imzalanan üçtərəfli bəyanatla Azərbaycan Ordusu Vətən müharibəmizdə parlaq qələbə qazandı. Yekun bəyanatla işğalçı erməni ordusu noyabrın 20-də Ağdamı tərk etdi.**



## Horovlu kəndi sakinlərini qarşıladı

### "Ağdamın əvvəlki şöhrəti bərpa olunacaq..."; Xankəndidə görülən işlər açıqlandı



Ali Baş Komandan İlham Əliyevin 2023-cü il iyulun 31-də verdiyi sərəncamdan sonra artıq 3 ildir ki, bu tarix respublikada ən yüksək səviyyədə qeyd olunmaqdadır.

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Böyük Qayıdış proqramı çərçivəsində işğaldan azad edilən torpaqlarımızın hər bir nöqtəsində olduğu kimi, Ağdamda da böyük bərpa-quruculuq işləri gedir.

**Milli Məclisin deputatı Cavanşir Paşazadə** bildirib ki, işğaldan azad olunmuş Ağdam erməni vandalizminin şahididir: "Ermənistan qəsdən mədəni və dini abidələrimizi vandalizmə məruz qoyub, təhqir və qarət edib.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 16 avqust tarixli Qərarı ilə "Ağdam şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı" təsdiq edilib. Ağdam şəhərinin Baş Planı bütün işğaldan azad edilmiş rayonların içərisində ən birinci təsdiqlənib. Ağdam azad edilmiş ərazilərin ən böyük, Azərbaycanın isə dördüncü böyük şəhərinə çevriləcək. Burada 100 min nəfər əhalinin yaşayacağı planlaşdırılır. Şanlı Qələbə nəticəsində işğaldan azad edilmiş digər ərazilərimizdə olduğu kimi, Ağdamda da geniş tikinti-quruculuq işləri həyata keçirilir. Xarabalıqlar üzərində yeni, müasir Ağdam qurulur. "Böyük Qayıdış" proqramı çərçivəsində Ağdam şəhəri və kəndlər yenidən tikilir, infrastruktur layihələri icra olunur, yollar inşa edilir, yeni istehsal müəssisələri yaradılır, yaşıllıqlar salınır, ərazilər mina və partlamamış hərbi sursatlardan təmizlənir.

Ağdamın əvvəlki şöhrəti bərpa olunacaq. Baş Plan əsasında Ağdam bərpa olunur. Şəhərin özündə 5 məhəllə nəzərdə tutulur. Hazırda 2-ci məhəllədə 66 binanın tikinti işləri başlayıb. Bundan sonra paralel olaraq digər məhəllələrdə də tikinti işləri aparılacaq. Hazırda Ağdamda 3 kənddə - Kəngərli, Xıdırlı, Sarıcalıda bərpa-quruculuq işləri davam edir. Həmin kəndlərin birinci mərhələlərinin açılışı olub. Ağdam rayonunda digər kəndlər üzrə layihələndirmə işləri aparılır. 2025-ci ilin oktyabr ayına qədər Ağdamın yenidən məskunlaşdırılması proqramı çərçivəsində 825 ailə, 3318 nəfər öz doğma torpaqlarına köçürülüb".

Qeyd edək ki, Böyük Qayıdışa uyğun olaraq, Cəbrayıl rayonunun Horovlu kəndinə növbəti köç karvanı yola salınıb. Bu mərhələdə 37 ailə, 160 nəfər köçürülüb.

"Mən uzun illərdir didərgin düşdüyüm torpağıma geri qayıdıram. Doğma yurda dönüş hissi insana tamam başqa bir duyğu verir. Mən 32 yaşımda yurdumdan çıxarılmışdım. İndi isə 65 yaşımda geri qayıdıram. Elə bil ki, yenidən dünyaya gəlmişəm. Bu günə şükür edirəm".

Bu sözləri AZƏRTAC-a müsahibəsində Horovlu kəndinə qayıdan sakin **Rəhman Kəlbəliyev** deyib. Doğma torpağa qayıdışı ən böyük səadət adlandıran R.Kəlbəliyev bu prosesdə əməyi olan hər kəsə təşəkkür edib: "Ən böyük minnətdarlığımız isə şəhidlərimizədir. Allah bütün şəhidlərimizə rəhmət etsin. Onların qanı bahasına biz bu torpaqlara qayıdırıq. Qazilərimizə Allah cansağlığı versin. Prezidentimizə də uzun ömür və güc-qüvvət arzulayıram - bütün bu qayıdış onun rəhbərliyi və ordumuzun şücaəti ilə mümkün olub".

"Mən Cəbrayılı heç vaxt görməmişəm. Uşaq yaşlarımdan bəri ailəmlə Bakıxanovda məcburi köçkünlük həyatı yaşamışıq. Atamdan, anamdan, böyüklərimizdən Cəbrayıla, kəndimizə dair hekayələr eşitmişəm, onların xatirələri ilə böyümüşəm. Mənim üçün o yerlər uzun illər xəyal kimi olub - heç getmədiyim, amma hər zaman görmək istədiyim bir yurd olub".

**Bu sözləri isə keçmiş məcburi köçkün Pərviz Balacayev deyib. O, hazırda həmin xəyalının gerçəyə çevrildiyini deyib:** "Kəndimizə qayıtmaq, orada yaşamaq imkanı yaranıb. Buna görə çox sevinirəm. Bu, bizim ailənin illərlə ürəyində daşıdığı həsrətin bitməsi, mənim isə heç vaxt görmədiyim, amma hər zaman mənə doğma olan torpağa addım atmağımdır. İndi Horovlunu öz gözlərimlə görmək, o torpaqda yaşamaq və oradan yeni xatirələr yaratmaq istəyirəm".

Sonda onu da qeyd edək ki, Kəlbəcərə də növbəti el köçü reallaşacaq. Belə ki, 27 ailə noyabrın 17-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində keçirilən püşkatma ilə doğma yurdda mənzil sahibi olub. Onlar yaxın günlərdə Kəlbəcər şəhərinə köçürüləcəklər.

""Böyük Qayıdış" proqramı çərçivəsində Xankəndi şəhərində genişmiqyaslı bərpa-quruculuq işləri gedir. İnfrastruktur - yollar, su, elektrik, qaz və rabitə xətləri yenilənib, bütün yaşayış və qeyri-yaşayış fonduna texniki baxış keçirilib. İstifadəyə yararsız tikililər sökülüb, şəhərin yeni baş planına uyğun müasir layihələr icra olunmağa başlayıb".

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, bu fikirləri xidmətin icraçı direktoru Telman Kərimli Memarlıq və İnşaat Universitetinin 50 illik yubiley tədbirində çıxışı zamanı səsləndirib.

Onun sözlərinə görə, Xankəndidəki əsas binaların əksəriyyəti - Zəfər Muzeyi, Prezidentin Xüsusi Nümayəndəliyinin binası və "Qarabağ" hoteli vaxtilə Azərbaycanın büdcəsi və azərbaycanlı memarların layihələri əsasında inşa olunub. Eləcə də meydanda yerləşən Mədəniyyət Mərkəzinin binası "Azərmemarlayihə" Dövlət Baş Layihə İnstitutunun memar və konstruktorları tərəfindən hazırlanmış müasir layihələr əsasında bərpa edilərək yenidən şəhər həyatına qaytarılır. Biznes Mərkəzi tam təmir olunaraq müasir ofis və xidmət məkanına çevrilib. Xankəndi şəhər stadionu yenilənərək idman tədbirləri üçün tam yararlı vəziyyətə gətirilib. Şəhərin mədəni yaddaşını yaşadan Dövlət Dram Teatrında da bərpa ardıcıl şəkildə aparılır.

**T.Kərimli onu da bildirib ki, işğal dövründə şəhərsalma prinsiplərinə uyğun olmayan tikililər sökülüb və onların yerində müasir ictimai məkanlar, iaşə obyektləri və funksional şəhər strukturlarının qurulması davam edir:** "Bu layihələr sırasında Zəfər Parkı xüsusi əhəmiyyət daşıyır. Park həm simvolik məkan, həm də Xankəndinin müasir inkişaf vizyonunu ifadə edən yeni şəhər nüvəsidir. Bu gün Xankəndi ilə yanaşı, Ağdərənin, Xocalının kəndlərində də bərpa və infrastruktur layihələri icra olunur. Kəndlərdə yollar salınır, mühəndis-kommunikasiya xətləri yenilənir, fərdi yaşayış evləri sakinlərin qayıdışı üçün tam şəkildə bərpa edilir".

**T. Kərimlinin sözlərinə görə, bu böyük quruculuq prosesinin əsas dayaqlarından biri peşəkar kadr potensialıdır:** "Qürurla deyə bilərik ki, Xankəndi, Ağdərə və Xocalıda həyata keçirilən layihələrin əhəmiyyətli hissəsində Azərbaycan Memarlıq və İnşaat Universitetinin iki yüzdən çox məzunu - memarlar, konstruktorlar, inşaat mühəndisləri və layihə rəhbərləri iştirak edir. Onların bilik və peşəkarlığı Qarabağın yenidən qurulmasına real töhfə verir. Bu gün Xankəndi tarixi irsi qorumaqla, müasir şəhərsalma standartlarına uyğun şəkildə yenidən formalaşır. Bütün görülən işlər dövlətçiliyin gücünü və memarlıq məktəbimizin peşəkarlığını əks etdirir".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Cavanşir ABBASLI

# Hacıqabul gölü niyə quruyur?

**Bir zamanlar köçəri quşların, ovçuların və turistlərin ən çox üz tutduğu Hacıqabul gölü indi demək olar ki, tamamilə quruyub.**



Xezerxeber.az xəbər verir ki, gölə yaxın yaşayan sakinlərin sözlərinə görə, bu ərazi illər öncə həm turizm, həm də istirahət məkanı kimi seçilirdi.

Vaxtilə 16/kv-km ərazisi, dərinliyi isə 5 metr olan göl bir neçə ildir su üzünə həsrət qalıb. Gölün qurumuş hissəsini yabanı ot basıb.

Ekoloqlar bildirirlər ki, gölün quruması təkcə təbiətə deyil, bölgənin iqliminə və biomüxtəlifliyinə də ciddi təsir göstərir. **Coğrafiya İnstitutunun Hidrologiya şöbəsinin müdiri Rza Mahmudov** deyir ki, Hacıqabul gölü vaxtilə Kür çayından qidalanırdı. Son illərdə qlobal iqlim dəyişikliyi Hacıqabul gölündən də yan keçməyib.

Rza Mahmudov deyir ki, gölün əvvəlki vəziyyətinə qaytarılması üçün müəyyən işlər aparılır. Su balansının bərpası, ətraf ərazilərdə monitorinqlər və ekoloji qiymətləndirmə davam edir.

Əgər tədbirlər uğurlu olarsa, mütəxəssislər gələcəkdə göldə minimum səviyyədə olsa belə, suyun geri dönəcəyini istisna etmirlər.

YENİ MÜSAVAT
N 209 (8819) 19 noyabr 2025

# Bağlanan iş yerlərinin sayı artır - səbəb

## Ekspert: “Orta və xırda müəssisələrin böyük əksəriyyəti vergi yükünü çəkə bilmir”

**2025-ci ilin yanvar-sentyabr aylarında ölkədə 77.7 min yeni iş yeri yaradılıb. Rəsmi statistikaya görə, bu iş yerlərinin 91.4 faizi qeyri-dövlət sektorunun payına düşüb. Yeni açılan iş yerlərinin 75.9 faizi Bakı şəhərində, 0.8 faizi Naxçıvan Muxtar Respublikasında, 23.3 faizi isə regionlarda formalaşıb.**

Regionlar üzrə bölgüdə 7.2 faiz Abşeron-Xızı, 2.7 faiz Quba-Xaçmaz, 2.7 faiz Şəki-Zaqatala, 2.4 faiz Qarabağ, 1.9 faiz Gəncə-Daşkəsən, 1.5 faiz Şirvan-Salyan, 1.2 faiz Lənkəran-Astara, 0.9 faiz Şərqi Zəngəzur, 0.9 faiz Mərkəzi Aran, 0.8 faiz Qazax-Tovuz, 0.6 faiz Mil-Muğan və 0.5 faiz Dağlıq Şirvan iqtisadi rayonlarına məxsusdur.

Yeni yaradılmış iş yerlərinin 9.1 faizi yeni müəssisə və təşkilatlarda, 89.8 faizi mövcud müəssisələrdə, 0.4 faizi fəaliyyəti bərpa olunan müəssisələrdə formalaşıb, 0.7 faiz iş yeri isə müxtəlif layihələr və abadlıq işləri nəticəsində açılıb.

Hüquqi şəxslər tərəfindən açılan iş yerlərinin 25.1 faizi tikinti, 16.2 faizi ticarət və nəqliyyat vasitələrinin təmiri, 12.1 faizi emal sənayesi, 7.9 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 7.5 faizi peşə, elmi və texniki fəaliyyət, 4.6 faizi təhsil, 3.7 faizi inzibati və yardımçı xidmətlər, 3.6 faizi nəqliyyat və anbar təsərrüfatı, 3.6 faizi səhiyyə və sosial xidmətlər, 3.3 faizi kənd təsərrüfatı və balıqçılıq, 2.6 faizi informasiya və rabitə, 2.1 faizi isə maliyyə və sığorta sektorlarında qeydə alınıb.

Hesabat dövründə 8.2 min iş yeri bağlanıb. Bağlanmış iş yerlərinin 47.4 faizi qeyri-dövlət sektorunda, 27.3 faizi müəssisə və təşkilatların fəaliyyətinin dayandırılması, 72.7 faizi isə mövcud müəssisələrdə aparılan ixtisarlarla əlaqədar olub.

Qeyd edək ki, Prezident İlham Əliyev noyabrın 12-də yeni icra başçıları ilə görüşündə bölgələrdə iş yerləri ilə bağlı da danışıb. “Bölgələrdə əlbəttə ki, məşğulluqla bağlı məsələlər əsas prioritetlərdən biridir. Azərbaycanda bütövlükdə məşğulluqla bağlı son illər ərzində çox böyük islahatlar aparılıb, işsizliyin səviyyəsi aşağı düşüb. Ancaq o da həqiqətdir ki, bu gün hələ də bölgələrdən Bakıya, böyük şəhərlərə miqrasiya meylləri mövcuddur”, - deyə dövlət başçısı bildirib.

**Dövlət başçısı onu da deyib ki, Bakıya axının müxtəlif səbəbləri var:** “Bölgələrdən şəhərlərə miqrasiyanın səbəblərindən biri də işsizlikdir. Bölgələrdə insanları işlə təmin etmək üçün indi dövlət müxtəlif addımlar atır, müəssisələr yaradılır, sahibkarlara güzəştli kreditlər verilir, özünüməşğulluq proqramı uğurla icra edilir. Artıq on minlərlə insan bu proqramla əhatə olunub. Ona görə yerlərdəki rəhbərlərdən də tələbim odur ki, iş yerlərinin yaradılmasına çalışsınlar, iş adamlarına şərait yaratsınlar”.

**Liberal İqtisadçılar Mərkəzinin sədri Akif Nəsirli** “Yeni Müsavat”a açıqlamasında bildirib ki, iş yerlərinin bağlanmasının özəl səbəbləri ilə yanaşı, ümumi səbəbləri də var. Onun sözlərinə görə, bu səbəblərdən biri ölkəmizdə sahibkarlardan tələb olunan vergilərin çox olmasıdır: “Orta və xırda müəssisələrin böyük əksəriyyəti vergi yükünü çəkə bilmir. Yeni il başlayanda vergi yükünün bir qədər də ağırlaşması gözlənilir. Hesab edirəm ki, buna görə də gələn il bağlanan iş yerlərinin sayı bir az da artacaq. Buna görə də Azərbaycanda vergi yığma sistemi sadələşdirilməlidir və ciddi güzəştlər tətbiq olunmalıdır ki, kiçik və mikrosahibkarlıq inkişaf etsin. 2024-cü ilin əvvəlində qərar verildi ki, hansısa müəssisənin 3 nəfərdən az işçisi varsa, onun vergisi 20 faizə qaldırılsın. Bundan çox işçisi olanların vergi yükü isə 5 faizə endirildi. Bu, çox anlaşılmaz qərardır. Daha zəif müəssisəyə ağır yük qoyulur, bir az güclü müəssisəyə isə yüngülləşdirilmiş vergi tətbiq edilir. Bu, sahəyə səpilən toxumun məhv edilməsi kimi bir şeydir. Azərbaycanın vergi sisteminin bu cür mürəkkəbləşməsi, ağırlaşması özəl sektorun belini sındıran yeganə amildir”.



**İqtisadçının sözlərinə görə, ölkəmizdə iş yerlərinin sayını artırmaq üçün mikro və kiçik sahibkarların vergi yükünü minimuma endirmək lazımdır:** “Sadələşdirilmiş 4-5 faizli vergi sistemini bərpa etmək lazımdır. Bu sistem əvvəllər var idi, güzəştlər ləğv olunandan sonra sahibkarlıq mühiti gərginləşdi. Müəyyən təkliflər vermək lazımdır. Vergini azaltmalıyıq ki, vergi subyektlərinin sayı çoxalsın. Subyektlərin çoxalması tendensiyasını almaq üçün müəyyən vergi güzəştləri edilə bilər. Müxtəlif variantlar var. Məsələn, elə kiçik sahibkarlar var ki, işə başlayanda ona deyirlər ki, sən mütləq kassa aparatı almalısan. Bu aparat 500 manatdır. Digər xərcləri də üstünə gələndə bu məbləğ 1000 manatı keçir. Yəni mikrosahibkar işə başlamaq üçün ən azı vergiyə 1000 manat xərc çəkməlidir. Götürək elə dərziliyə, bərbərliyə başlayan adamı. Bu şəxslər sadaladığımız səbəblərə görə vergi məmurları onları yaxalayana kimi qeyri-qanuni işləyirlər. Yaxalanandan sonra isə elə cərimə yazılır ki, altından çıxa bilmirlər”.

**Deputat Fazil Mustafa hesab edir ki, iqtisadi aktivliyin artması üçün real sahibkarlıq mühiti formalaşdırılmalıdır:** “Əlverişli faizlə kredit götürmək, məhkəmə sisteminin sahibkarı qoruması, qeyri-rəsmi yoxlamaların qarşısının alınması əsas şərtlərdir. Mülkiyyətə toxunulmazlıq təmin edilməlidir ki, sahibkar sərmayəsini risk etmədən yatırmağa cəsarət etsin. Dövlət sahibkar qədər istehsalın inkişafını təmin edə bilməz. İnhisarçılıq meylləri azaldılmalı, bazar hər kəs üçün açıq olmalıdır. Əgər bu mexanizmlər işləsə, azərbaycanlı sahibkar çox qısa müddətdə iqtisadi fəallığı bərpa edə bilər”.

**İqtisadçı Xalid Kərimli mövzu ilə bağlı deyib ki, yerlərinin bağlanmasının bir çox səbəbləri ola bilər:** “Məsələn, sahibkarın gözlədiyi satış həcmi əldə edilməyə bilər, yaxud da qiymət rəqabəti məhsulu istədiyi qiymətə satmağa mane olar. Yaxud da işlərin avtomatlaşdırılması kadra tələbatı azaldar. Sahibkar biznesini kiçildə və başqa biznesə keçə bilər. Dövləti maraqlandıran odur ki, dövr ərzində yaradılmış iş yerlərinin sayı bağlanan iş yerlərinin sayından çox olsun. Yeni yaradılmış işlər əmək bazarına uyğun olmalıdır. Orta aylıq əməkhaqqına əsasən bu iş yerlərinin əlverişliliyi təhlil olunur. İş yeri açılanda və işçi uğrunda mübarizə olanda onun əməkhaqqı da qalxır. Həmişə tələbat olan resursun qiyməti qalxır.

Vacib məsələ bazar balansının qorunmasıdır. Bağlanan iş yerləri açılanlardan çoxdursa, problem qaçılmaz olur. Digər tərəfdən, yeni açılan iş yerlərində maaşlar çox zaman aşağı olur, bu isə sosial vəziyyəti yaxşılaşdırmır. Qeyri-neft sektoru hələ də yetərincə inkişaf etməyib. Adambaşına düşən ÜDM göstəricisi aşağıdır".

❑ **Şahanə RƏHİMLİ, “Yeni Müsavat”**



# “ƏDV geri al” gələn ildən bu sahələrdə də tətbiq olunacaq

**"Vergi Məcəlləsinə gələn ildən “ƏDV geri al” mexanizmi ilə bağlı yeni dəyişikliyin edilməsi nəzərdə tutulub. Layihə Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində dəstəklənərək plenar iclasa tövsiyə edilib".**

Bunu **deputat Vüqar Bayramov** sosial şəbəkə hesabında bildirib. V.Bayramov qeyd edib ki, yeni dəyişikliklərə əsasən, gələn ildən vətəndaşlara “ƏDV geri al”a görə daha çox vəsaitin ödənilməsi nəzərdə tutulur: “Belə ki, təklif edilən layihəyə əsasən, bərbərxana, gözəllik salonu və kosmetoloji mərkəzlər tərəfindən göstərilən xidmətlərə görə "ƏDV geri al" mexanizminin tətbiqi həyata keçiriləcək. Bu o deməkdir ki, sözügedən xidmətlərdən istifadə edən vətəndaşlarımız ödədiyi verginin bir hissəsini geri ala biləcəklər".

**Deputatın sözlərinə görə, yeni qaydalarda məqsəd qeyd olunan sektorlarda şəffaflığı gücləndirmək və nağdsız ödənişləri stimullaşdırmaqdır:** “Bu, eyni zamanda həmin xidmətlərdən istifadə zamanı vətəndaşlarımızın ödəşinin bir hissəsinin geri qaytarılması yolu ilə istehlakçılara vəsait ödənilməsinə imkan verəcək. Bu isə birbaşa stimullaşdırıcı xarakter daşıyır. Bu baxımdan, yeni qaydalar istehlakçıların ödədikləri vəsaitin bir hissəsini geri almağa imkan yaratmaqla yanaşı, sözügedən sahənin "ağarması" prosesini sürətləndirəcək".




# AZAL reyslərin tezliyini artırır

**“AZCON Holding” şirkətlərindən olan “Azərbaycan Hava Yolları” (AZAL) 2025-ci ilin qış uçuş cədvəlini genişləndirərək London, Barselona, Milan, Male və digər şəhərlər də daxil olmaqla, 20-dən çox beynəlxalq istiqamət üzrə reyslərin sayını artırıb.**

Bu barədə “Azərbaycan Hava Yolları” QSC-nin Mətbuat Xidmətindən məlumat verilib. Yenilənmiş qrafikə əsasən, AZAL 2025-ci ilin oktyabr ayının sonundan etibarən Avropa, Yaxın Şərq və Asiyanın əsas marşrutlarında fəaliyyətini daha da gücləndirib.

**2024-cü ilin qış mövsümü ilə müqayisədə 2025-ci ilin qış cədvəlində reyslərin tezliyi aşağıdakı kimi artırılıb:**

- Milan, Mumbay, Nyu-Dehli, Kişineu və Daşkənd - hər istiqamət üzrə həftədə 7 reys (ötən il bu istiqamətlər üzrə 3-5 reys olub);
- Almatı, Ciddə və Astana - hər biri üzrə həftədə 5 reys (daha əvvəl bu marşrut üzrə 2-4 reys yerinə yetirilirdi);
- Barselona, London (Qetvik hava limanı) və Ər-Riyad - hər istiqamət üzrə həftədə 4 reys (ötən il 3 reysədək həyata keçirilirdi);
- Bişkek, Düşənbə, Male və Pekin - hər istiqamət üzrə həftədə 3 reys (daha əvvəl bu marşrut üzrə 2 reys icra olunurdu);
- Səmərqənd və Ürgənc - hər biri üzrə həftədə 2 reys (ötən il bu istiqamətlər üzrə uçuşlar yerinə yetirilmirdi).

YENİ MÜSAVAT
Son səhifə
N 209 (8819) 19 noyabr 2025
Noyabr

## Bunları bilmək lazımdır:

* Tərə qarşı dezodorantları səhər yox, gecə vurun. Bu, daha uzun müddətə qoxunun qarşısını alacaq.
* Ütünün suyunun içinə bir az ətir vursanız, paltarlarınızdan gözəl qoxu gələcək.
* Külqabının pis iylənməməsi üçün onu su ilə yox, zeytun yağı ilə isladın.
* Pişiklərin divan və ya kreslonuza oturmasını istəmirsinizsə, həmin yerə naftalin qoyun. Pişiklər onu heç sevməzlər.
* Saçlarınızı boyadarkən üzünüzə dəyən boyanı südə batırılmış pambıqla silin.
* Yata bilmirsinizsə, albalı suyu için.
* Zibil qutunuzun içinə soda və ya qabartma tozu töksəniz pis qoxunun qarşısını ala biləcəksiniz.
* Yumurtanı qaynatdıqdan sonra qalan suyu dibçəyə tökün. Bitkilərə çox xeyirlidir.
* Dırnaq boyasından qalan sarılığı götürmək üçün dırnağa sirkə sürtün. Rəngini açacaq.
* Mədəniz bulanırsa, bir stəkan qəhvə için.

## Nasist düşərgəsi tunelləri ilə səyahətə çıxan ata və oğul itkin düşüb

**Almaniyada keçmiş həbs düşərgəsində gəzintiyə çıxan ata və oğul itkin düşüb. Oxu.Az xəbər verir ki, onların axtarışları üçün genişmiqyaslı axtarış-xilasetmə əməliyyatı aparılıb. Məlumata görə, 50 yaşlı ata və 19 yaşlı oğlu Almaniyada 1943-1945-ci illərdə 60 mindən çox məhbusun raketlər düzəltdiyi Dora-Mittelbau həbs düşərgəsinin tunellərinə daxil olublar. Ata planları barədə keçmiş həyat yoldaşına məlumat verib və məhz qadın kişilərin itkin düşməsi barədə polisə zəng edib. Axtarış əməliyyatına polis itləri və helikopter cəlb olunub.**

Tezliklə itkin düşənlər özləri qohumları ilə telefonla əlaqə saxlayaraq vəziyyətlərinin normal olduğunu bildiriblər. Hazırda ata və oğul əraziyə qanunsuz daxil olmaqda ittiham olunurlar və axtarış xərclərini Türingiya polisinə ödəməlidirlər.

## Sonsuzluq yaradan qidalar

**Son illərdə sonsuzluq hallarının artmasında tibbi problemlərlə yanaşı, gündəlik qidalanmanın da böyük rolu var. Araşdırmalar göstərir ki, bəzi qidalar hormon balansını pozaraq həm qadınlarda, həm də kişilərdə reproduktiv funksiyalara mənfi təsir göstərir.**

Milli.Az xəbər verir ki, xüsusilə emal olunmuş və trans yağlarla zəngin məhsullar, həddindən artıq şəkər qəbul edilən qidalar, hormonlu ət və toyuq məhsulları, sosiska və kolbasa kimi emal olunmuş ət də daxil olmaqla, düzgün seçilməyən qida rasionu yumurta və sperma keyfiyyətini zəiflədə bilər. Araşdırmalara görə, qazlı içkilər və enerji içkiləri insulin müqavimətini artıraraq ovulyasiya pozğunluğuna səbəb olur, kişilərdə isə testosteron səviyyəsini aşağı sala bilir. Həddindən artıq kofein qəbulu da reproduktiv sağlamlıq üçün risk faktorlarından sayılır və həm hamiləlik şansını azalda, həm də düşük ehtimalını artıra bilər. Mütəxəssislər bildirirlər ki, sağlam qidalanma sonsuzluğun qarşısının alınmasında mühüm əhəmiyyət daşıyır və insanların daha çox təzə tərəvəz-meyvəyə, keyfiyyətli zülal mənbələrinə və təbii qidalara üstünlük verməsi tövsiyə olunur. Qeyd edilir ki, hər hansı bir qida birbaşa sonsuzluğa səbəb olmasa da, uzun müddət yanlış qidalanma hormon balansını pozaraq reproduktiv sistemi zəiflədə bilər.

# Şizofrenlərin ən çox istifadə etdiyi söz açıqlandı



**"Mən" sözündən daha çox istifadə edənlər əsasən şizofrenlərdir. Milli.Az xəbər verir ki, bunu psixiatr Vladimir Skavış açıqlayıb. Onun dediyinə görə, şizofreniyası olan insanlar danışanda "mən" sözündən sağlam adamlara nisbətən daha çox istifadə edir. "Bunun səbəbi həmin insanların öz düşüncələrinə və hisslərinə həddindən artıq qapanmasıdır. Onlar daim özləri haqqında düşünür və bu hal danışıq tərzlərinə də təsir edir", - həkim fikrini izah edib.**

O əlavə edib ki, şizofreniya zamanı nitqdə başqa problemlər də olur. Cümlələrdə uyğunsuzluqlar yaranır, söz seçimi çətinləşir və bəzən ifadələr mövzuya uyğun olmur. Buna baxmayaraq, mən sözünün çox işlədilməsi ən sabit əlamət sayılır.

"Bu nəticə şizofreniyanı daha tez və daha dəqiq müəyyən etməyə kömək edə bilər. Xüsusilə risk qrupunda olan gənclərdə və yeniyetmələrdə xəstəliyi erkən aşkar etmək üçün faydalı ola bilər", - o fikrini yekunlaşdırıb.

# Sağ qalmaq üçün 50 siçovul yeyib



Çinli qadın sağ qalmaq üçün müsabiqədə 50 siçovul yeyib.

Oxu.Az "South China Morning Post" nəşrinə istinadən xəbər verir ki, 25 yaşlı çinli Çjao Teçju sərt şərtlərlə keçirilən yarışda sağ qalmaq üçün 50 siçovul yeməli olub. Hadisə ölkənin əksər media qurumlarında manşetlərdə işıqlandırılıb.

Yarışın qaydalarına görə, iştirakçılar 35 gün ərzində səhra şəraitində yaşamalı, 40 dərəcə istidə sağ qalmaq üçün mübarizə aparmalı olublar. Çjaonun ayaqları həşəratların dişləmələri nəticəsində yara izləri ilə örtülüb.

Çətin sınaqlardan qalib çıxan Çjao 14 kiloqram arıqlayıb və 7 500 yuan (təxminən 1 794 manat) mükafat qazanıb. O, pəhrizini proteinlə zəngin qidalarla təmin etdiyini, gəmiriciləri ovlayıb dərilərini soyaraq qovurduğunu bildirib.

Yarış təşkilatçıları insanları belə təhlükəli təcrübələri təkrarlamamağa çağırıblar. Çinli qadın isə növbəti yarışlarda 15 kiloqram daha arıqlamaq niyyətində olduğunu söyləyib.



## Avropada ilk sürücüsüz elektrik avtobusu işə başlayıb

**Finlandiyanın Tampere şəhərində pilotsuz elektrik avtobusu hərəkətə başlayıb. Oxu.Az bu barədə "Xinhua" agentliyinə istinadən xəbər verir. Bildirilib ki, bu, ölkədə sürücüsüz nəqliyyat vasitəsinin ilk dəfə rəsmən ictimai nəqliyyat sisteminin daimi hissəsinə çevrildiyi haldır. Avtobus 12 sərnişin üçün nəzərdə tutulub və uşaq arabalarını da daşıya bilir. İlkin mərhələdə avtobusda təhlükəsizlik işçisi olacaq, lakin 2026-cı ilin yazından etibarən onun tamamilə avtonom rejimdə işləməsi planlaşdırılır. Bundan sonra onun hərəkətinə uzaqdan idarəetmə mərkəzindən nəzarət ediləcək.**

## Malayziyada evə 60 kiloqramlıq piton girdi



**Malayziyada evlərin birində 60 kiloqramlıq piton aşkar edilib. Nəhəng ilanı 15 yaşlı qız məktəbdən evə qayıdarkən vanna otağının tavanında görüb. İlan evdən çıxarılması üçün mütəxəssislər çağırılıb. Onun mənzilə açıq qapıdan daxil olduğu iddia olunur.**

## Miqreni yüngülləşdirən pəhriz



**Amerikalı alimlər müəyyən ediblər ki, qlütamatın qəbulu azaldıldıqda miqren tutmalarının tezliyi aşağı düşür. Oxu.Az xəbər verir ki, tədqiqatın nəticələri nevroloqların San-Dieqoda keçirilən illik toplantısında təqdim olunub.**

Qlütamat ləzzət artırıcıların əsas komponentidir. Bu maddə həm pəhriz qidalarından, həm də pomidor və göbələk kimi tərəvəzlərdən orqanizmə daxil olur, sinir sistemində ağrı siqnallarının ötürülməsində iştirak edir və beynin həssaslığının artmasında mümkün amil hesab olunur. Tədqiqatda 1990-1991-ci illər Körfəz müharibəsinin veteranları iştirak ediblər. Onlar digər insanlarla müqayisədə miqrendən daha çox əziyyət çəkirlər. İlkin MRT müayinəsi iştirakçıların sağ görmə korteksinin qalınlığında artım olduğunu göstərib. Bu beyin sahəsi vizual məlumatların emalı ilə əlaqəlidir və miqrenin yaranmasında rol oynayır.

Araşdırmanın ikinci mərhələsində iştirakçılar azqlütamatlı pəhrizə keçiblər. Bir ay sonra aparılan təkrar müayinələrdə görmə korteksinin qalınlığında və miqren tutmalarının tezliyində ciddi azalma qeydə alınıb. Əgər pəhrizdən əvvəl iştirakçıların yarıdan çoxu miqren yaşayırdısa, bir ay sonra bu göstərici cəmi 20 faizə enib. Eyni zamanda xroniki ağrı, yorğunluq, əhval problemləri və idrak çətinlikləri də azalıb.

Alimlər bu pəhrizin ümumilikdə bütün miqren xəstələri üçün faydalı ola biləcəyini düşünürlər. Hazırda pəhrizin təsir mexanizmlərini və qlütamat həssaslığının artmasında qan-beyin baryerinin rolunu müəyyənləşdirmək üçün əlavə tədqiqatlar aparılır.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Lisenziya N: B 114
SAYI: 1.500
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.